AZƏRBAYCANIN BÜTÖVLÜYÜ, MÜSTƏQİLLİYİ VƏ TƏRƏQQİSİ

# RESPUBLİKA

TƏSİSÇİ: AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN İŞLƏR İDARƏSİ VƏ QƏZETİN REDAKSİYA HEYƏTİ

18 İYUL 2018-ci il ÇƏRŞƏNBƏ № 156 (6189) GÜNDƏLİK İCTİMAİ-SİYASİ, SOSİAL-İQTİSADİ QƏZET WWW.RESPUBLICA-NEWS.AZ

## Azərbaycan dilinin elektron məkanda daha geniş istifadəsinin təmin edilməsi ilə bağlı bir sıra tədbirlər haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan dili xalqımızın mənəvi sərvəti və dövlətimizin müstəqilliyinin başlıca rəmzlərindən biridir. Ölkədə dil siyasətinin formalaşdırılması, ana dilinin dövlət dili olaraq tətbiqi işinin təkmilləşdirilməsi və dünya azərbaycanlılarının ünsiyyət vasitəsinə çevrilməklə, həmrəyliyin göstəricisi kimi beynəlxalq aləmdə rolunun və nüfuzunun yüksəlməsi Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin adı ilə bağlıdır.

Müstəqil Azərbaycanın 1995-ci ildə ümumxalq səsverməsi yolu ilə qəbul olunmuş Konstitusiyasında Azərbaycan dilinin Azərbaycan Respublikasının dövlət dili kimi təsbiti, Azərbaycan Respublikası Prezidentinin “Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında” və “Azərbaycan əlifbası və Azərbaycan dili gününün təsis edilməsi haqqında” fərmanları, “Azərbaycan dilinin qloballaşma şəraitində zamanın tələblərinə uyğun istifadəsinə və ölkədə dilçiliyin inkişafına dair Dövlət Proqramı”, eləcə də “Azərbaycan Respublikasında dövlət dili haqqında” Azərbaycan Respublikasının Qanunu və dil siyasəti sahəsində digər normativ hüquqi aktlar, həmçinin tədbirlər Azərbaycanda dilçilik sahəsinin hüquqi əsaslarını və icra mexanizmini müəyyən etmişdir.

Bu gün Azərbaycan dilinin istifadəsi və əsaslı tədqiqi, ölkədə dilçilik elmi sahəsində vəziyyətin yaxşılaşdırılması üçün əlverişli zəmin yaradılmışdır. Eyni zamanda, elm və texnikanın sürətlə inkişaf etdiyi hazırkı qloballaşma dövrü Azərbaycan dilinin zənginləşməsi və tətbiqi imkanlarının genişləndirilməsi istiqamətində aparılan işlərin yeni səviyyəyə yüksəldilməsini tələb edir.

Azərbaycan Respublikasında hər il yüzlərlə əcnəbi təhsil alır. Ölkəmizi əcnəbi tələbələrə daha yaxından tanıtmaq, onların Azərbaycan cəmiyyətinə inteqrasiyasını asanlaşdırmaq və ölkəmizlə mənəvi bağlarını daha da möhkəmlətmək üçün əcnəbilərin, o cümlədən ölkəmizdə təhsil alan xarici ölkə vətəndaşlarının Azərbaycan dilini öyrənməsinə imkan yaradılması əhəmiyyətli məsələlərdən biridir.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, müstəqil dövlətçiliyimizin əsas atributlarından biri olan Azərbaycan dilinin elektron məkanda daha geniş istifadəsinin, bu dillə maraqlanan şəxslər üçün əlçatanlığının təmin edilməsi və öyrənilməsinin asanlaşdırılması məqsədilə **qərara alıram:**

**1.** Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi Azərbaycan Respublikasının Təhsil Nazirliyi, Azərbaycan Respublikasının Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi və Azərbaycan Milli Elmlər Akademiyası ilə birlikdə Azərbaycan Respublikasında “Əcnəbilər üçün Azərbaycan dilinin elektron platforması” layihəsinin tətbiqinə, həyata keçirilməsi mexanizmlərinə və icra müddətinə dair təkliflərini iki ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Nazirlər Kabinetinə təqdim etsin.

**2.** Azərbaycan Respublikasının Nazirlər Kabineti:

*2.1.* bu Sərəncamın 1-ci hissəsinə əsasən təqdim olunacaq təklifləri beynəlxalq təcrübə, habelə Azərbaycan Respublikası qanunvericiliyinin və onun tətbiqi təcrübəsinin təhlili əsasında dəyərləndirsin və “Əcnəbilər üçün Azərbaycan dilinin elektron platforması” layihəsinin tətbiqinin məqsədəuyğunluğu barədə, habelə həmin layihənin həyata keçirilməsi üçün tələb olunan maliyyə vəsaitinə, maliyyələşmə mənbələrinə və icra mexanizmlərinə dair təkliflərini, layihənin tətbiqindən gözlənilən nəticələr barədə proqnozları 2018-ci il dekabrın 1-dən gec olmayaraq Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

*2.2.* zərurət yarandığı təqdirdə, Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin müraciətinə əsasən, digər dövlət orqanlarının (qurumlarının) da bu Sərəncamın 1-ci hissəsində nəzərdə tutulmuş təkliflərin hazırlanması prosesinə cəlb olunmasını təmin etsin;

*2.3.* bu Sərəncamdan irəli gələn digər məsələləri həll etsin.

**3.** Bu Sərəncam 2018-ci il avqustun 1-dən qüvvəyə minir.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 17 iyul 2018-ci il.**

## “Azərbaycan Respublikası Hökuməti və Hindistan Respublikası Hökuməti arasında ticarət, iqtisadi, elmi və texnoloji əməkdaşlıq üzrə Hökumətlərarası Komissiyanın Azərbaycan Respublikası tərəfindən tərkibi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 18 oktyabr tarixli 2445 nömrəli Sərəncamında dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1.** “Azərbaycan Respublikası Hökuməti və Hindistan Respublikası Hökuməti arasında ticarət, iqtisadi, elmi və texnoloji əməkdaşlıq üzrə Hökumətlərarası Komissiyanın Azərbaycan Respublikası tərəfindən tərkibi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 18 oktyabr tarixli 2445 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007, N 10, maddə 982; 2009, N 1, maddə 17; 2010, N 2, maddə 80; 2012, N 2, maddə 109; 2014, N 2, maddə 112, N 6, maddə 644, N 11, maddə 1414; 2016, N 8, maddə 1384, N 9, maddə 1518) 1-ci hissəsi ilə yaradılmış Komissiyanın tərkibi aşağıdakı redaksiyada verilsin:

**“Komissiyanın həmsədri**

Azərbaycan Respublikasının ekologiya və təbii sərvətlər naziri

**Komissiyanın üzvləri**

Azərbaycan Respublikası xarici işlər nazirinin müavini

Azərbaycan Respublikası iqtisadiyyat nazirinin müavini

Azərbaycan Respublikası mədəniyyət nazirinin müavini

Azərbaycan Respublikası müdafiə sənayesi nazirinin müavini

Azərbaycan Respublikası energetika nazirinin müavini

Azərbaycan Respublikası nəqliyyat, rabitə və yüksək texnologiyalar nazirinin müavini

Azərbaycan Respublikası kənd təsərrüfatı nazirinin müavini

Azərbaycan Respublikası təhsil nazirinin müavini

Azərbaycan Respublikası səhiyyə nazirinin müavini

Azərbaycan Respublikası Dövlət Turizm Agentliyinin sədri

Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi sədrinin müavini

Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin vitse-prezidenti

Azərbaycan Respublikası Mərkəzi Bankı sədrinin müavini

Azərbaycan Respublikasının Hindistan Respublikasında fövqəladə və səlahiyyətli səfiri.”.

**2.** Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi bu Sərəncamın 1-ci hissəsi ilə edilən dəyişiklik barədə Hindistan Respublikası tərəfinə bildiriş göndərsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 17 iyul 2018-ci il.**

## “Azərbaycan Respublikası Dövlət Neft Fondunun 2018-ci il büdcəsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 28 dekabr tarixli 1770 nömrəli Fərmanında dəyişikliklər edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan Respublikasının 2018-ci il dövlət büdcəsində dəyişikliklər edilməsi ilə əlaqədar Azərbaycan Respublikası Dövlət Neft Fondunun 2018-ci il büdcəsinin gəlirlərini və xərclərini dəqiqləşdirmək məqsədi ilə **qərara alıram:**

**1.** “Azərbaycan Respublikası Dövlət Neft Fondunun 2018-ci il büdcəsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 28 dekabr tarixli 1770 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, N 12 (I kitab), maddə 2338) aşağıdakı dəyişikliklər edilsin:

*1.1.* 1-ci hissədə “11 559 956,2” və “9 730 221,8” rəqəmləri müvafiq olaraq “15 310 823,9” və “11 480 221,8” rəqəmləri ilə əvəz edilsin;

*1.2.* 2-ci hissə üzrə:

1.2.1. 2.1-ci bənddə “9 723 786,1” rəqəmləri “13 307 411,0” rəqəmləri ilə əvəz edilsin;

1.2.2. 2.2-ci bənddə “3 612,0” rəqəmləri “4 080,0” rəqəmləri ilə əvəz edilsin;

1.2.3. 2.3-cü bənddə “16 340,0” rəqəmləri “17 370,0” rəqəmləri ilə əvəz edilsin;

1.2.4. 2.4-cü bənddə “1 042 046,1” rəqəmləri “1 216 734,8” rəqəmləri ilə əvəz edilsin;

1.2.5. 2.5-ci bənddə “774 172,0” rəqəmləri “765 228,1” rəqəmləri ilə əvəz edilsin;

1.2.6. gəlirlərin məbləğinin cəmi göstərilən sətirdə “11 559 956,2” rəqəmləri “15 310 823,9 “ rəqəmləri ilə əvəz edilsin;

*1.3.* 3-cü hissə üzrə:

1.3.1. 3.2-ci bənddə “9 216 000,0” rəqəmləri “10 966 000,0” rəqəmləri ilə əvəz edilsin;

1.3.2. xərclərin məbləğinin cəmi göstərilən sətirdə “9 730 221,8” rəqəmləri “11 480 221,8” rəqəmləri ilə əvəz edilsin.

**2.** Azərbaycan Respublikasının Dövlət Neft Fondu bu Fərmandan irəli gələn məsələləri həll etsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 17 iyul 2018-ci il.**

## İtaliya Prezidenti Sercio Mattarella Azərbaycana rəsmi səfərə gəlib



**İtaliya Respublikasının Prezidenti Sercio Mattarella iyulun 17-də Azərbaycan Respublikasına rəsmi səfərə gəlib.**

AZƏRTAC xəbər verir ki, hər iki ölkənin dövlət bayraqlarının dalğalandığı Heydər Əliyev Beynəlxalq Aeroportunda ali qonağın şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

İtaliya Respublikasının Prezidenti Sercio Mattarellanı və qızı Laura Mattarellanı hava limanında Azərbaycan Respublikası Baş nazirinin birinci müavini Yaqub Eyyubov, xarici işlər nazirinin müavini Xələf Xələfov və digər rəsmi şəxslər qarşıladılar.

**AZƏRTAC**

## Azərbaycan Respublikası Dövlət Neft Fondunun 2017-ci il büdcəsinin icrası haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 29 dekabr tarixli 434 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının Dövlət Neft Fondu haqqında Əsasnamə”yə və Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 12 sentyabr tarixli 579 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Azərbaycan Respublikası Dövlət Neft Fondunun illik gəlir və xərclər proqramının (büdcəsinin) tərtibi və icrası Qaydaları”na müvafiq olaraq Azərbaycan Respublikası Dövlət Neft Fondunun 2017-ci il büdcəsinin icrası ilə bağlı hazırlanmış hesabata dair Dövlət Neft Fondunun Müşahidə Şurasının və Azərbaycan Respublikası Hesablama Palatasının rəylərini və Dövlət Neft Fondunun maliyyə fəaliyyətinin beynəlxalq auditor təşkilatı tərəfindən keçirilmiş auditinin nəticələrini nəzərə alaraq **qərara alıram:**

Azərbaycan Respublikası Dövlət Neft Fondunun 2017-ci il büdcəsinin icrası, gəlirlər 12 137 503,3 min manat, xərclər 11 015 537,9 min manat və ya Fondun 2017-ci il büdcəsində nəzərdə tutulana nisbətən gəlirlər üzrə 112,2%, xərclər üzrə 72,3% səviyyəsində olmaqla, aşağıdakı kimi təsdiq edilsin:

| Sıra №-si | Göstəricilər | min manatla |
|---|---|---|
| | **Gəlirlər, cəmi** | **12 137 503,3** |
| | o cümlədən: | |
| 1. | Azərbaycan Respublikasının payına düşən karbohidrogenlərin satışından əldə edilən xalis gəlirlər (karbohidrogenlərin nəql edilməsi üzrə məsrəflər, bank, gömrük rəsmiləşdirilməsi, müstəqil nəzarət (sörveyer), marketinq və sığorta xərcləri çıxılmaq şərtilə, habelə Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin sərmayəçisi, payçısı və ya tərəfdaşı olduğu layihələrdə onun sərmayəsinə və ya iştirak payına düşən gəlirlər istisna olmaqla) | 11 029 988,9 |
| 2. | Karbohidrogen ehtiyatlarının işlənməsi ilə əlaqədar sərmayəçilərin müqavilə sahəsindən istifadə üçün ödədikləri akrhesabı ödənişlər | 3 605,5 |
| 3. | Neftin və qazın Azərbaycan Respublikasının ərazisi ilə ötürülməsindən əldə edilən gəlirlər | 17 914,9 |
| 4. | Neft-qaz sazişlərinin imzalanması və ya icrası ilə bağlı Azərbaycan Respublikasının Dövlət Neft Şirkətinə və ya səlahiyyətli dövlət orqanına sərmayəçilərin ödədikləri bonuslar (mükafatlar) | 2 407,6 |
| 5. | Dövlət Neft Fondunun valyuta aktivlərinin idarə edilməsindən əldə edilən gəlirlər | 1 083 586,4 |

| | | |
|---|---|---|
| | **Xərclər, cəmi** | **11 015 537,9** |
| | o cümlədən: | |
| 1. | Qaçqınların və məcburi köçkünlərin sosial-məişət və məskunlaşma məsələləri ilə bağlı bəzi tədbirlərin maliyyələşdirilməsi | 104 999,9 |
| 2. | Azərbaycan Respublikasının 2017-ci il dövlət büdcəsinə transfert | 6 100 000,0 |
| 3. | Samur–Abşeron suvarma sisteminin yenidən qurulması layihəsinin maliyyələşdirilməsi | 69 997,2 |
| 4. | Bakı-Tbilisi-Qars yeni dəmir yolu layihəsinin maliyyələşdirilməsi | 20 557,4 |
| 5. | 2007–2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsilinə dair Dövlət Proqramının maliyyələşdirilməsi | 17 009,7 |
| 6. | Makroiqtisadi sabitliyin təmin edilməsi məqsədilə Azərbaycan Respublikasının Mərkəzi Bankına transfert | 3 949 484,8 |
| 7. | Türkiyə Respublikasında “Star” neft emalı kompleksinin tikintisi layihəsində Azərbaycan Respublikasının iştirak payının maliyyələşdirilməsi | 735 422,2 |
| 8. | Azərbaycan Respublikası Dövlət Neft Fondunun idarə edilməsi ilə bağlı xərclər | 18 066,7 |

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 17 iyul 2018-ci il.**

## “Yanar dağ” dövlət tarix-mədəniyyət və təbiət qoruğunun yenidən qurulması ilə bağlı tədbirlər haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1.** “Yanar dağ” dövlət tarix-mədəniyyət və təbiət qoruğunun müasir standartlara uyğunlaşdırılması və sözügedən abidənin ərazisində müasir turizm infrastrukturunun yaradılması məqsədilə Azərbaycan Respublikasının 2018-ci il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan Azərbaycan Respublikasının Dövlət Turizm Agentliyinə 1,2 milyon (bir milyon iki yüz min) manat ayrılsın.

**2.** Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 17 iyul 2018-ci il.**

## Qəbələ rayonunun Nic-Mıxlıqovaq-Yemişanlı-Uludaş-Tikanlı-Abrıx avtomobil yolunun tikintisi ilə bağlı tədbirlər haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1.** On bir min nəfər əhalinin yaşadığı 8 yaşayış məntəqəsini birləşdirən Nic-Mıxlıqovaq-Yemişanlı-Uludaş-Tikanlı-Abrıx avtomobil yolunun tikintisi məqsədi ilə Azərbaycan Respublikasının 2018-ci il dövlət büdcəsinin dövlət əsaslı vəsait qoyuluşu xərclərinin bölgüsündə avtomobil yollarının tikintisi və yenidən qurulması üçün nəzərdə tutulmuş vəsaitin 6,8 milyon (altı milyon səkkiz yüz min) manatı Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə ayrılsın.

**2.** Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

**3.** Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 17 iyul 2018-ci il.**

## “Məhkəmələr və hakimlər haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə

# Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 5-ci bəndini rəhbər tutaraq **qərara alır:**

“Məhkəmələr və hakimlər haqqında” Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1997, N 5, maddə 413; 1999, N 5, maddə 284, N 7, maddə 396, N 10, maddə 570; 2001, N 5, maddə 292, N 6, maddə 379, N 7, maddə 455; 2002, N 1, maddə 4, N 12, maddə 706; 2003, N 6, maddə 278; 2004, N 2, maddə 57, N 3, maddə 133, N 4, maddə 199, N 8, maddələr 597, 598, N 9, maddə 669; 2005, N 1, maddə 7, N 8, maddə 686; 2006, N 1, maddə 4, N 12, maddə 1005; 2007, N 5, maddələr 439, 446, N 7, maddə 712, N 11, maddə 1078, N 12, maddə 1222; 2008, N 3, maddə 163, N 7, maddə 609; 2009, N 2, maddə 46, N 11, maddə 878; 2010, N 7, maddə 596, N 10, maddə 842; 2011, N 4, maddə 265; 2013, N 1, maddə 21; 2014, N 2, maddə 85, N 7, maddələr 782, 784; 2015, N 2, maddə 98, N 4, maddə 346, N 5, maddə 483, N 11, maddə 1286; 2016, N 6, maddə 1004, N 11, maddə 1789, N 12, maddə 2033; 2017, N 6, maddə 1034, N 7, maddə 1305, N 11, maddə 1965; 2018, N 1, maddə 12, N 3, maddə 395; Azərbaycan Respublikasının 2018-ci il 4 may tarixli 1123-VQD nömrəli Qanunu) aşağıdakı dəyişikliklər edilsin:

**1.** 113-cü maddənin ikinci hissəsinin 11-ci bəndinin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 12-ci bənd əlavə edilsin:

“12) “Məhkəmə-Hüquq Şurası haqqında” Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş təkrar qiymətləndirmə nəticəsində hakimin (ilk dəfə hakim təyin edilmiş şəxslər istisna olmaqla) fəaliyyətində yenidən peşəkar çatışmazlıqlar aşkar edildikdə.”.

**2.** 114-cü maddənin üçüncü hissəsində “6-11-ci” sözləri “6-12-ci” sözləri ilə əvəz edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 29 iyun 2018-ci il.**

## “Məhkəmələr və hakimlər haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə” Azərbaycan Respublikasının 2018-ci il 29 iyun tarixli 1230-VQD nömrəli Qanununun tətbiqi haqqında

# Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu bəndini rəhbər tutaraq, “Məhkəmələr və hakimlər haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə” Azərbaycan Respublikasının 2018-ci il 29 iyun tarixli 1230-VQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının “Məhkəmələr və hakimlər haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə” Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.4. həmin Qanundan irəli gələn digər məsələləri həll etsin.

2. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların “Məhkəmələr və hakimlər haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə” Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 16 iyul 2018-ci il.**

## Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişikliklər edilməsi haqqında

# Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 15-ci bəndini rəhbər tutaraq **qərara alır:**

Azərbaycan Respublikasının Vergi Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, N 8, I kitab, maddə 583; 2001, N 7, maddə 454, N 9, maddə 576, N 12, maddə 734; 2002, N 5, maddə 249, N 12, maddə 707; 2003, N 8, maddə 425, N 12, I kitab, maddə 671; 2004, N 1, maddə 1, N 11, maddə 887, N 12, maddə 980; 2005, N 2, maddə 61, N 8, maddə 688, N 12, maddə 1081; 2006, N 12, maddələr 1005, 1026; 2007, N 1, maddə 4, N 6, maddə 597, N 8, maddə 745, N 11, maddə 1053, N 12, maddə 1192; 2008, N 7, maddə 602, N 11, maddə 960; 2009, N 7, maddə 506; 2011, N 1, maddə 14, N 7, maddələr 588, 603, N 12, maddə 1115; 2012, N 6, maddələr 500, 513, N 7, maddə 652, N 9, maddə 841, N 12, maddə 1226; 2013, N 2, maddə 91, N 4, maddə 366, N 11, maddə 1278, N 12, maddələr 1483, 1486, 1495; 2014, N 2, maddələr 94, 98, N 6, maddə 608, N 7, maddə 770, N 8, maddə 957, N 10, maddə 1158, N 12, maddə 1525; 2015, N 1, maddə 11, N 12, maddə 1433; 2016, N 2, I kitab, maddə 207, N 3, maddələr 396, 402, N 5, maddə 848, N 6, maddələr 973, 974, 1015, N 7, maddə 1245, N 10, maddə 1603, N 11, maddələr 1752, 1792, 1793, N 12, maddələr 2001, 2037, 2046; 2017, N 2, maddə 146, N 5, maddələr 695, 723, 737, N 6, maddə 1055, N 7, maddə 1304, N 8, maddə 1509, N 12, I kitab, maddələr 2219, 2251, 2270; 2018, N 2, maddə 149; Azərbaycan Respublikasının 2018-ci il 24 aprel tarixli 1076-VQD nömrəli Qanunu) aşağıdakı dəyişikliklər edilsin:

**1.** 188.1.1-ci maddədə “üç” sözü “1,5” rəqəmləri ilə və “600” rəqəmləri “200” rəqəmləri ilə əvəz edilsin.

**2.** Aşağıdakı məzmunda 194.1-2-ci maddə əlavə edilsin:

“194.1-2. Aksiz markasının verilməsinə görə “Dövlət rüsumu haqqında” Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş məbləğdə dövlət rüsumu tutulur.”.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 29 iyun 2018-ci il.**

## “Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişikliklər edilməsi haqqında” Azərbaycan Respublikasının 2018-ci il 29 iyun tarixli 1194-VQD nömrəli Qanununun tətbiqi barədə

# Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu bəndini rəhbər tutaraq, “Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişikliklər edilməsi haqqında” Azərbaycan Respublikasının 2018-ci il 29 iyun tarixli 1194-VQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədi ilə **qərara alıram:**

**1.** Azərbaycan Respublikasının Nazirlər Kabineti:

*1.1.* Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının “Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişikliklər edilməsi haqqında” Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

*1.2.* Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

*1.3.* mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

*1.4.* həmin Qanundan irəli gələn digər məsələləri həll etsin.

**2.** Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların “Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişikliklər edilməsi haqqında” Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 16 iyul 2018-ci il.**

## Azərbaycan Respublikası vətəndaşının yeni nəsil şəxsiyyət vəsiqəsinin tətbiqi müddətləri ilə əlaqədar Azərbaycan Respublikasının bəzi qanunlarında dəyişikliklər edilməsi haqqında

# Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 10-cu bəndini rəhbər tutaraq **qərara alır:**

**1.** “Azərbaycan Respublikası vətəndaşının şəxsiyyət vəsiqəsi haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə” Azərbaycan Respublikasının 2011-ci il 30 dekabr tarixli 282-IVQD nömrəli Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012, N 2, maddə 62; 2013, N 12, maddə 1498; 2015, N 6, maddə 682; 2017, N 12 (I kitab), maddə 2241) 4.4-cü maddəsinin ikinci abzasında və 7-ci maddəsində “2019-cu il yanvarın” sözləri “2018-ci il sentyabrın” sözləri ilə əvəz edilsin.

**2.** “Azərbaycan Respublikası vətəndaşının şəxsiyyət vəsiqəsi nümunəsinin təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Qanununun ləğv edilməsi barədə” Azərbaycan Respublikasının 2011-ci il 30 dekabr tarixli 283-IVQ nömrəli Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012, N 2, maddə 63; 2013, N 12, maddə 1499; 2015, N 6, maddə 682; 2017, N 12 (I kitab), maddə 2241) “2019-cu il yanvarın” sözləri “2018-ci il sentyabrın” sözləri ilə əvəz edilsin.

**3.** “Azərbaycan Respublikası vətəndaşının şəxsiyyət vəsiqəsi haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə” Azərbaycan Respublikasının 2013-cü il 19 aprel tarixli 617-IVQD nömrəli Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013, N 5, maddə 466; 2014, N 1, maddə 12; 2015, N 6, maddə 682; 2017, N 12 (I kitab), maddə 2241) 2.1-ci maddəsində “2019-cu il yanvarın” sözləri “2018-ci il sentyabrın” sözləri ilə əvəz edilsin.

**4.** “Ölkədən getmək, ölkəyə gəlmək və pasportlar haqqında” Azərbaycan Respublikası Qanununun tətbiqi haqqında” Əsasnamənin və “Azərbaycan Respublikası vətəndaşının şəxsiyyət vəsiqəsi haqqında” Azərbaycan Respublikası Qanununun tətbiqi haqqında” Əsasnamənin təsdiq edilməsi barədə” Azərbaycan Respublikası Milli Məclisinin 1994-cü il 29 noyabr tarixli 928 nömrəli Qərarının ləğv edilməsi haqqında” Azərbaycan Respublikasının 2013-cü il 19 aprel tarixli 618-IVQ nömrəli Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013, N 5, maddə 467, N 12, maddə 1500; 2015, N 6, maddə 682; 2017, N 12 (I kitab), maddə 2241) 2-ci maddəsində “2019-cu il yanvarın” sözləri “2018-ci il sentyabrın” sözləri ilə əvəz edilsin.

**5.** “Yaşayış yeri və olduğu yer üzrə qeydiyyat haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə” Azərbaycan Respublikasının 2013-cü il 19 aprel tarixli 621-IVQD nömrəli Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013, N 5, maddə 470, N 12, maddə 1501; 2015, N 6, maddə 682; 2016 (I kitab), N 2, maddə 199, N 12, maddə 2026; 2017, N 12 (I kitab), maddə 2241) 2-ci maddəsində “2019-cu il yanvarın” sözləri “2018-ci il sentyabrın”sözləri ilə əvəz edilsin.

**6.** “Azərbaycan Respublikasının 1999-cu il 8 dekabr tarixli 773-IQ nömrəli Qanunu ilə təsdiq edilmiş “Yaşayış yeri və olduğu yer üzrə qeydiyyat haqqında” Azərbaycan Respublikası Qanununun tətbiqi haqqında Əsasnamə”də dəyişikliklər edilməsi barədə” Azərbaycan Respublikasının 2013-cü il 19 aprel tarixli 622-IVQD nömrəli Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013, N 5, maddə 471, N 12, maddə 1502; 2015, N 6, maddə 682; 2016, N 12, maddə 2027; 2017, N 12 (I kitab), maddə 2241) 1.13-cü və 2-ci maddələrində “2019-cu il yanvarın” sözləri “2018-ci il sentyabrın” sözləri ilə əvəz edilsin.

**7.** “Dövlət rüsumu haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə” Azərbaycan Respublikasının 2013-cü il 19 aprel tarixli 625-IVQD nömrəli Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013, N 5, maddə 474, N 12, maddə 1504; 2015, N 6, maddə 682; 2017, N 12 (I kitab), maddə 2241) 2.2-ci maddəsində “2019-cu il yanvarın” sözləri “2018-ci il sentyabrın” sözləri ilə əvəz edilsin.

**8.** “Azərbaycan Respublikası Əhalisinin Dövlət Reyestri haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə” Azərbaycan Respublikasının 2013-cü il 19 aprel tarixli 626-IVQD nömrəli Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013, N 5, maddə 475, N 12, maddə 1505; 2015, N 6, maddə 682; 2016, N 11, maddə 1757; 2017, N 1, maddə 28, N 12 (I kitab), maddə 2241) 2-ci maddəsində “2019-cu il yanvarın” sözləri “2018-ci il sentyabrın” sözləri ilə əvəz edilsin.

**9.** “Azərbaycan Respublikasının 2007-ci il 10 aprel tarixli 267-IIIQ nömrəli Qanunu ilə təsdiq edilmiş “Azərbaycan Respublikasına qayıdış şəhadətnaməsinin verilməsi qaydası haqqında Əsasnamə”də dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2013-cü il 19 aprel tarixli 627-IVQD nömrəli Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013, N 5, maddə 476; 2014, N 1, maddə 13; 2015, N 6, maddə 682; 2017, N 12 (I kitab), maddə 2241) 2-ci maddəsində “2019-cu il yanvarın” sözləri “2018-ci il sentyabrın” sözləri ilə əvəz edilsin.

**10.** “Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsində dəyişikliklər edilməsi haqqında” Azərbaycan Respublikasının 2015-ci il 29 may tarixli 1295-IVQD nömrəli Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015, N 6, maddə 689; 2017, N 6, maddə 728, N 12 (I kitab), maddə 2241) 2.1-ci maddəsində “2019-cu il yanvarın” sözləri “2018-ci il sentyabrın” sözləri ilə əvəz edilsin.

**11.** “Azərbaycan Respublikası vətəndaşının şəxsiyyət vəsiqəsi haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2015-ci il 29 dekabr tarixli 86-VQD nömrəli Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, N 2, maddə 198; 2016, N 12, maddə 2029; 2017, N 12 (I kitab), maddə 2241) 1-ci maddəsinin üçüncü abzasında və 2-ci maddəsində “2019-cu il yanvarın” sözləri “2018-ci il sentyabrın” sözləri ilə əvəz edilsin.

**12.** “Dövlət rüsumu haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə” Azərbaycan Respublikasının 2018-ci il 23 fevral tarixli 1019-VQD nömrəli Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, N 4, maddə 647) 2-ci maddəsində “2019-cu il yanvarın” sözləri “2018-ci il sentyabrın” sözləri ilə əvəz edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 29 iyun 2018-ci il.**

## “Azərbaycan Respublikası vətəndaşının yeni nəsil şəxsiyyət vəsiqəsinin tətbiqi müddətləri ilə əlaqədar Azərbaycan Respublikasının bəzi qanunlarında dəyişikliklər edilməsi haqqında” Azərbaycan Respublikasının 2018-ci il 29 iyun tarixli 1217-VQD nömrəli Qanununun tətbiqi barədə

# Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu bəndini rəhbər tutaraq, “Azərbaycan Respublikası vətəndaşının yeni nəsil şəxsiyyət vəsiqəsinin tətbiqi müddətləri ilə əlaqədar Azərbaycan Respublikasının bəzi qanunlarında dəyişikliklər edilməsi haqqında” Azərbaycan Respublikasının 2018-ci il 29 iyun tarixli 1217-VQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədi ilə **qərara alıram:**

**1.** Azərbaycan Respublikasının Nazirlər Kabineti:

*1.1.* Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının “Azərbaycan Respublikası vətəndaşının yeni nəsil şəxsiyyət vəsiqəsinin tətbiqi müddətləri ilə əlaqədar Azərbaycan Respublikasının bəzi qanunlarında dəyişikliklər edilməsi haqqında” Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

*1.2.* Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

*1.3.* mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

*1.4.* həmin Qanundan irəli gələn digər məsələləri həll etsin.

**2.** Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların “Azərbaycan Respublikası vətəndaşının yeni nəsil şəxsiyyət vəsiqəsinin tətbiqi müddətləri ilə əlaqədar Azərbaycan Respublikasının bəzi qanunlarında dəyişikliklər edilməsi haqqında” Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 16 iyul 2018-ci il.**

## “Elektroenergetika haqqında” Azərbaycan Respublikasının Qanununa, “Qaz təchizatı haqqında” Azərbaycan Respublikasının Qanununa və “Su təchizatı və tullantı suları haqqında” Azərbaycan Respublikasının Qanununa əlavələr və dəyişikliklər edilməsi barədə” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 30 oktyabr tarixli 168 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə

# Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, “Qaz təchizatı haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə” Azərbaycan Respublikasının 2018-ci il 13 fevral tarixli 996-VQD nömrəli Qanununun tətbiqi ilə əlaqədar **qərara alıram:**

“Elektroenergetika haqqında” Azərbaycan Respublikasının Qanununa, “Qaz təchizatı haqqında” Azərbaycan Respublikasının Qanununa və “Su təchizatı və tullantı suları haqqında” Azərbaycan Respublikasının Qanununa əlavələr və dəyişikliklər edilməsi barədə” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 30 oktyabr tarixli 168 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009, N 10, maddə 781; 2016, N 7, maddə 1268) 2-ci hissəsindən “Qaz təchizatı haqqında” Azərbaycan Respublikası Qanununun 11-ci maddəsinin 6-cı hissəsinin üçüncü cümləsində və” sözləri çıxarılsın.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 13 iyul 2018-ci il.**

## “Qaz təchizatı haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi ilə əlaqədar əlavə tədbirlər haqqında” Azərbaycan Respublikası Prezidentinin 1999-cu il 10 avqust tarixli 178 nömrəli Fərmanının ləğv edilməsi barədə

# Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, “Qaz təchizatı haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə” Azərbaycan Respublikasının 2018-ci il 13 fevral tarixli 996-VQD nömrəli Qanununun tətbiqi ilə əlaqədar **qərara alıram:**

“Qaz təchizatı haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi ilə əlaqədar əlavə tədbirlər haqqında” Azərbaycan Respublikası Prezidentinin 1999-cu il 10 avqust tarixli 178 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, N 8, maddə 488; 2000, N 7, maddə 498; 2001, N 10, maddə 640; 2003, N 10, maddə 546; 2007, N 8, maddə 769; 2008, N 8, maddə 719, N 9, maddə 798; 2009, N 11, maddə 886; 2010, N 3, maddə 181, N 10, maddə 857; 2014, N 2, maddə 112, N 5, maddə 477, N 10, maddə 1200; 2016, N 7, maddə 1270, N 8, maddə 1384) ləğv edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 13 iyul 2018-ci il.**

## “Qaz təchizatı haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə” Azərbaycan Respublikasının 2015-ci il 30 sentyabr tarixli 1326-IVQD nömrəli Qanununun tətbiqi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 12 noyabr tarixli 673 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə

# Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, “Qaz təchizatı haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə” Azərbaycan Respublikasının 2018-ci il 13 fevral tarixli 996-VQD nömrəli Qanununun tətbiqi ilə əlaqədar **qərara alıram:**

“Qaz təchizatı haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə” Azərbaycan Respublikasının 2015-ci il 30 sentyabr tarixli 1326-IVQD nömrəli Qanununun tətbiqi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 12 noyabr tarixli 673 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015, N 11, maddə 1303) 2-ci hissəsi ləğv edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 13 iyul 2018-ci il.**

# Konstitusiya Məhkəməsi Palatasının növbəti iclası keçirilib

**Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Palatasının növbəti iclası keçirilib.**

Konstitusiya Məhkəməsinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, iclasda Azərbaycan Respublikası Konstitusiyasının 130-cu maddəsinin V hissəsinə və "Konstitusiya Məhkəməsi haqqında" Qanunun 7.1-ci maddəsinə əsasən, vətəndaş Ş.Əliyevanın məhkəmə aktlarından verdiyi şikayətə baxılaraq, Konstitusiya Məhkəməsi Plenumunun icraatına qəbul olunması haqqında qərardad çıxarılıb.

Şikayətə mahiyyəti üzrə, tərəflərin iştirakı ilə Konstitusiya Məhkəməsi Plenumunun sentyabrın 9-na təyin edilmiş iclasında baxılacaq.

AZƏRTAC

# Rusiyanın informasiya agentliyi Leyla Əliyevanın kitabı haqqında yazıb

**Rusiyanın "RİA Novosti" agentliyinin "Rossiya dlya vsex" portalı Azərbaycan Tərcümə Mərkəzinin beynəlxalq layihələri haqqında, yaxın günlərdə Londonda dərc edilmiş gənc Azərbaycan şairi Leyla Əliyevanın "The World Dissolves like a Dream" ("Dünya yuxutək əriyir") kitabı haqqında material yerləşdirib.**




Tərcümə Mərkəzindən AZƏRTAC-a bildirilib ki, məqalədə gənclərin Leyla Əliyevanın əsərlərinə marağından və kitabın nəşr edilməsi məqsədindən danışılıb.

Məqalə ilə daha yaxından tanış olmaq istəyənlər https://azj.rus4all.ru/exclusive/20180703/728681157.html elektron ünvanına müraciət edə bilər.

AZƏRTAC

# Binəqədi rayonunda qəzalı binada məskunlaşmış məcburi köçkünlərlə görüş keçirilib

**Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri Rövşən Rzayev və müavinləri, Binəqədi Rayon İcra Hakimiyyətinin nümayəndələri ilə birgə Binəqədi rayonu, 8-ci mikrorayonda Bakı Humanitar Kollecinin yataqxanasında məskunlaşan məcburi köçkünlərlə görüşüblər. Bu barədə AZƏRTAC-a Dövlət Komitəsindən məlumat verilib.**



Məcburi köçkünlərin yaşadıqları yerlərə baş çəkən Rövşən Rzayev onların problemləri ilə yerində tanış olub, suallarını cavablandırıb.

Dövlət Komitəsinin sədri Prezident İlham Əliyevin və Birinci vitse-prezident Mehriban Əliyevanın qaçqın və məcburi köçkünlərin sosial vəziyyətinin yaxşılaşdırılmasını daim diqqətdə saxladıqlarını deyib. Bildirib ki, dövlət bu təbəqədən olan vətəndaşlarımıza xüsusi qayğı ilə yanaşır. Heydər Əliyev Fondu tərəfindən hazırda bir sıra layihələrin icra olunduğunu söyləyən Dövlət Komitəsinin sədri daha ağır vəziyyətdə yaşayan məcburi köçkünlərin mənzil-məişət şəraitlərinin yaxşılaşdırılması istiqamətində mərhələli və sistemli şəkildə işlərin həyata keçirildiyini vurğulayıb.

Görüşdə digər rayon və şəhərlərdəki məcburi köçkünlərlə də bu cür görüşlərin nəzərdə tutulduğu diqqətə çatdırılıb. Qeyd edilib ki, görüşün məqsədi məcburi köçkünlərin qayğıları ilə yaxından tanış olmaq, onların problemlərini daha dərindən öyrənməkdir.

AZƏRTAC

# Məcburi köçkünlərlə növbəti görüş olub

**İyulun 17-də Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsində məcburi köçkünlərlə növbəti görüş olub.**



Dövlət Komitəsindən AZƏRTAC-a bildiriblər ki, qəbulda Komitənin sədr müavinləri, şöbə və departament müdirləri iştirak ediblər.

Məcburi köçkünlərin müraciətləri əsasən mənzil-məişət şəraitinin yaxşılaşdırılması, kommunal xidmətlər və digər sosial problemlərlə bağlı olub.

Dövlət Komitəsinin sədri müraciətləri ayrı-ayrılıqda dinləyib. Qeydə alınmış müraciətlərlə əlaqədar müvafiq tədbirlərin görülməsi üçün tapşırıqlar verilib.

AZƏRTAC

# Ömrünün kamillik zirvəsində

**Sadəlik, səmimilik, yüksək peşəkarlıq, hərtərəfli bilik, zəngin təcrübə, təşkilatçılıq qabiliyyəti... Bu nəcib keyfiyyətlər heç də hamıya nəsib olmur. Bu yüksək keyfiyyətlərə malik insanları, sözün həqiqi mənasında, xoşbəxt adlandırmaq olar.**

Bu gün 50 yaşı tamam olan Azərbaycan Respublikası Prezidentinin protokol xidməti rəisinin müavini - Birinci vitse-prezidentin protokol sektorunun müdiri Eldar Rzayev məhz belə insanlardandır.

Düz yarım əsrə bərabər bir ömür yolu. Bu yolda Eldar Rzayev çox çətinliklərə sinə gərib. Bu illər ərzində o, özünə başqalarında inam və rəğbət hissi yaradıb. Öhdəsinə düşən məsuliyyətin böyüklüyünü dərk etməklə yanaşı, ona tapşırılan hər bir işi şərəflə, vicdanla yerinə yetirib.

Eldar Rzayev 1968-ci ildə Bakı şəhərində anadan olub. 1986-cı ildə orta məktəbi, 1991-ci ildə Bakı Dövlət Universitetinin şərqşünaslıq fakültəsini bitirib. Təhsilini Fransa Respublikasının Dövlət Administrasiya Akademiyasında davam etdirib. 1995-2004-cü illərdə Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin Dövlət Protokol İdarəsinin rəis müavini işləyib, 2004-cü ildə isə Azərbaycan Respublikası Prezidentinin protokol xidmətində fəaliyyətə başlayıb. 2003-cü ildə Vatikan Dövlətinin "Gregory Magne" ordeni ilə təltif olunan Eldar Rzayev bir neçə xarici dildə sərbəst danışır.

Yubilyar haqqında xoş sözlər söyləmək bir ənənədir. Ancaq Eldar müəllim haqqında bu xoş sözləri heç də ənənə xatirinə söyləmirik. O, həqiqətən də savadı, istedadı, geniş dünyagörüşü, insanpərvərliyi ilə özünə dərin hörmət və rəğbət qazandıran bir şəxsiyyətdir. Yaşından, dünyagörüşündən, milliyyətindən asılı olmayaraq, hər kəslə səmimi ünsiyyət qurmaq bacarığına malikdir, insanlara sevgi ilə, hörmətlə yanaşır. Ona görə də onunla ünsiyyət quran, dostluq edən insanların sayı çoxdur. Biz onun bu yüksək insani keyfiyyətlərinin Azərbaycan Respublikası Prezidentinin, Birinci vitse-prezidentinin xarici ölkələrə səfərlərini işıqlandıran əməkdaşlarımıza münasibətdə şahidi oluruq. Məhz bu səfərlər zamanı onun peşəkarlığını, səmimiliyini, xüsusilə də qayğıkeşliyini hiss edirik. Onun işi sırf protokolla bağlı olsa da, mətbuatı da heç zaman diqqətdən kənarda qoymur, xüsusən də gənc əməkdaşlarımıza öz köməyini əsirgəmir.

Eldar Rzayevin portret cizgilərinə daha nə əlavə etmək olar? O, səmimi olduğu qədər də həssas, təmkinli insandır. Öz davranışları ilə ətrafındakılara hər zaman inam və qətiyyət, məhəbbət və hörmət hissləri aşılayır. O, həm də təpədən dırnağa qədər vətənpərvər bir insandır.



Köksündə Azərbaycan sevgisi, mənsub olduğu millətə tükənməz məhəbbətlə dolu ürək çırpınan Eldar Rzayev inanırıq ki, daha neçə-neçə illəri arxada qoyacaq, üzərinə düşən işi sevgi ilə və şərəflə yerinə yetirəcək. Heç bir qüvvə onu öz mövqeyindən və amalından çəkindirə bilməyəcək. O, öz ideallarından heç vaxt dönməyəcək, dövlətə, dövlətçiliyə daim sədaqətlə xidmət edəcək.

Dahilərdən birinin "Güclü insanlar həmişə sadədir" fikrini tam mənada Eldar Rzayevə şamil etmək olar. Bəlkə də ona olan ən böyük sevginin, məhəbbətin də qayəsində tutduğu vəzifədən, qazandığı hörmət və nüfuzdan asılı olmayaraq sadəliyi, alicənablığı, insanpərvərliyi dayanır.

Əlli yaş ömrün kamillik zirvəsidir. AZƏRTAC-ın kollektivi bu kamillik zirvəsinə ucalan Eldar Rzayevi 50 illik yubileyi münasibətilə ürəkdən təbrik edir, möhkəm cansağlığı, uzun ömür, ürəkdolusu ailə sevinci, məsuliyyətli və şərəfli işində yeni-yeni uğurlar arzu edir.

AZƏRTAC

# UNEC-in Zaqatala filialında təhsil haqları azaldılıb

**Azərbaycan Dövlət İqtisad Universitetinin (UNEC) Zaqatala filialı 2018/2019-cu tədris ilinə yeniliklərlə start verəcək.**

UNEC-in İctimaiyyətlə Əlaqələr Şöbəsinin məlumatında bildirilir ki, Zaqatala filialına yeni tədris ilindən I və II ixtisas qrupu üzrə tələbə qəbulu həyata keçiriləcək. I ixtisas qrupunu seçən abituriyentlər informasiya texnologiyaları ixtisası üzrə əyani təhsil ala biləcəklər. II qrupda isə ixtisasların sayı artırılıb. II ixtisas qrupu üzrə iqtisadiyyat, maliyyə, mühasibat uçotu və audit, biznesin idarə edilməsi, turizm və otelçiliklə yanaşı, menecment, marketinq ixtisasları da tədris olunacaq.

Tələbə və valideynləri sevindirəcək daha bir yenilik isə Zaqatala filialında təhsil haqları ilə bağlıdır. Belə ki, filialda ixtisaslar üzrə təhsil haqları qiyabi və əyani təhsildə əhəmiyyətli dərəcədə azaldılıb. Filiala qiyabi qəbul planında və keçid ballarında da dəyişiklər olunub. Filiala keçid balları azaldılıb.

Yeni tədris ilindən Zaqatala filialında tədrisin keyfiyyətinin artırılması məqsədilə Elektron Universitet Modeli tətbiq olunacaq. Biliyin qiymətləndirilməsində şəffaflıq və operativliyin təmin olunması üçün isə imtahanlar elektron qaydada mərkəzləşdirilmiş test üsulu ilə aparılacaq. Filialda tələbələrin stimullaşdırılması, sağlam rəqabət mühitinin yaradılması məqsədilə ötən tədris ilində olduğu kimi, bu il də imtahanlarda ən yüksək nəticə göstərən tələbə təhsilini bir semestrlik Bakıda davam etdirə biləcək. Eyni zamanda imtahanlarda ən yüksək nəticə



göstərən 3 tələbəyə 100 AZN məbləğində xüsusi təqaüd veriləcək.

Ülvi QARAYEV,
"Respublika".

# Tariximizin şərəfli və qürurlu günü

**İnsan üçün köləlikdən şərəfsiz, azadlıqdan şərəfli heç nə yoxdur. Müdriklər kölə kimi yaşamaqdansa ölməyi üstün tutublar. Dünyaya bir dəfə gələn insan öz ömrünü yalnız azad cəmiyyətdə yaşasa xoşbəxt ola bilər. Böyük şairimiz Sabir "Hürriyyət olan yerdə insanlıq olar" - deyib.**

**Tariximizin ən şərəfli və ən qürurlu günlərindən biri 100 il bundan qabaq 1918-ci ilin 28 mayında Tiflis şəhərində 24 nəfər üzvü olan Azərbaycan Milli Şurası tərəfindən "İstiqlal bəyannaməsi" ilə elan edilən Cümhuriyyət tariximizdir.**

Qafqaz sərdarının Tiflisdəki sarayında toplaşmış Milli Şuranın 28 may 1918-ci il tarixli iclasında Azərbaycanın müstəqilliyi haqqında aşağıdakı İstiqlal bəyannaməsi elan edildi:

*I. Bu gündən etibarən Azərbaycan xalqları suveren hüquqlara malikdirlər. Şərqi və Cənubi Zaqafqaziyadan ibarət olan Azərbaycan tamhüquqlu müstəqil dövlətdir.*

*II. Müstəqil Azərbaycanın siyasi quruluş forması Demokratik Respublikadır.*

*III. Azərbaycan Demokratik Respublikası bütün millətlər, xüsusilə qonşu xalqlar və dövlətlərlə mehriban qonşuluq münasibətləri yaratmağa çalışır.*

*IV. Azərbaycan Demokratik Respublikası öz sərhədləri daxilində milliyyətindən, dinindən, sosial vəziyyətindən və cinsindən asılı olmayaraq bütün vətəndaşlara vətəndaşlıq və siyasi hüquqlar təmin edir.*

*V. Azərbaycan Demokratik Respublikası öz ərazisi daxilində yaşayan bütün millətlərə azad inkişafı üçün geniş imkanlar verir.*

*VI. Müəssislər Məclisi çağırılana qədər bütün Azərbaycanın idarəsi başında xalq seçkiləri ilə seçilmiş Milli Şura və Milli Məclis qarşısında məsuliyyət daşıyan Müvəqqəti Hökumət durur.*

Azərbaycan Milli Şurasının üzləşdiyi birinci problem ərazi problemi idi. Bəllidir ki, ermənilər Qafqaz xalqları qrupuna daxil deyillər. Qafqaza Çar Rusiyasının siyasi marağı ilə 1830-1840-cı illər arasında Türkiyə və İran ərazilərindən köçürülüblər. Azərbaycan "İstiqlal bəyannaməsi"ni elan edəndə ermənilərin əsas məskunlaşdığı Aleksandropol (yəni Gümrü) Türkiyə tərəfindən tutulduğundan ermənilər İrəvan şəhərini Ermənistanın (Araratın) mərkəzi seçilməsini istədilər. Ermənilərin bu fikrinə Qərb ölkələri (ingilislər, fransızlar, ruslar) havadar çıxdılar. Azərbaycan Milli Şurası İrəvanın ermənilərə siyasi mərkəz verilməsi fikrini nəzərdən keçirdi. Milli Şurada irəvanlılar adından təmsil olunan B.Rzayev öz çıxışında dedi: "Müstəqil Azərbaycan uğrunda çalışmaqla yanaşı, rica edirik bizi – erməni ərazisində qalanları da unutmayasınız".

Bu dövrdə gürcü hökumətinin başçısı Ramisvili Azərbaycanla Gürcüstanın sərhədinin Gəncə və Tiflis quberniyalarının ərazisi üzrə müəyyən olunması haqqında bəyanat vermişdi.

1918-ci il iyun ayının 14-də Azərbaycan hökumətinin xarici işlər naziri öz notasında Borçalı, Qarayazı, Sığnax mahallarına gürcü-alman hərbi hissələrinin yeridilməsi ilə buranın Gürcüstana qatılmasına etirazını bildirib bu problemin siyasi yolla həlli tərəfdarı olduğunu göstərirdi və deyirdi: "İki ölkə arasında sərhədlər məsələsi hələ həll edilməmişdir. Mənim hökumətim bu məsələni həll etmək üçün xüsusi beynəlxalq komissiya yaratmağı təklif etmişdir. Təbii ki, həmin komissiyanın işinin nəticəsində əgər göstərilən ərazi Gürcüstana düşsə, onda mənim hökumətim öz hərbi hissələrinin buradan çıxarılması haqqında təcili sərəncam verəcəkdir. Bundan başqa, gürcü nümayəndələri Göyçə, Qazax və Zaqatala mahallarının da tarixən gürcü torpaqları olduqlarını iddia edirdilər. Gürcü nümayəndə heyətinin başçısı M.Ə.Rəsulzadə ilə söhbətində qeyd edirdi ki, bizim ərazi iddialarımız təmin edilməsə "qan tökülməli olacaq". Məhəmməd Əmin bəy də ona qətiyyətlə belə cavab vermişdi: "Nə etmək olar, məcbur etsələr qan da tökmək olar". 1918-ci ilin sonlarında ermənilər Borçalı mahalının cənub rayonlarını, Forini və ətrafını zəbt etdi. Borçalı müharibəsindən sonra erməni hərbi dəstələri Naxçıvanda, Şərurda, Qarsda, Zəngəzurda, Qarabağda müharibəni davam etdirirdi. Ermənilərin iddiaları "böyük Ermənistan" qurmaq idi. Onlar ermənilər məskunlaşan beş-on kəndi bəhanə etsələr də bütün Azərbaycan ərazisini və Türkiyənin, İranın, Suriyanın, İraqın böyük ərazilərini tutmaq iddiasında idilər. Bu dövrdə Azərbaycan Demokratik Respublikasının İran dövləti ilə münasibətlərində də ciddi problemlər var idi. İran dövləti Azərbaycan adlı demokratik dövləti qəti tanımaq istəmirdi. İran xarici işlər naziri öz notalarında dəfələrlə bildirirdi ki, Azərbaycan adlı dövlət ola bilməz, bu ərazilər İran ərazisindən ayrılıb, İran ərazisinə də daxil edilmədilər. İran xarici işlər nazirinin notalarına Milli Şuranın sədri Məhəmməd Əmin Rəsulzadə və Azərbaycan parlamentinin sədri Əli Mərdan bəy Topçubaşov kəskin etirazlarını bildirirdilər.

Məhəmməd Əmin 1908-1911-ci illərdə İranda ictimai-siyasi fəaliyyət göstərmişdir. O, Tehranda dərc olunan "Yeni İran" adlı gündəlik qəzetin baş redaktoru olmuşdur. Eyni zamanda Məhəmməd Əminin İran azərbaycanlılarının azadlıq (məşrutə) hərəkatına xüsusi rəğbəti olmuşdur. O dəfələrlə Səttar xanla, Bağır xanla və Məşrutə hərəkatının digər fəalları ilə görüşmüş və bu haqda İranda kitablar nəşr etdirmişdi.

"İranda hürriyyət" məqaləsini 1906-cı ilin 20 fevralında, "İranda inqilab" məqaləsini 1906-cı ilin 21 iyununda "İrşad" qəzetində dərc etdirib. Sonra İranda yanvarın doqquzu, "İran işlərinə, İrana dair", "Şahın vəfatına dair", "Təbriz vəkillərinin Bakıda dayanmaları" və sairə məqalələrini yazıb. Məhəmməd Əmin İranda "İran türkləri", "Səadətli bəşər" (Ərdəbildə nəşr olunub) "Sosialist-mühafizəkar partiyaların tənqidi" (Tehranda) kitablarını nəşr etdirib.

Azərbaycan Milli Qurtuluş hərəkatının böyük ideoloqu Məhəmməd Əmin İran rəhbərliyinin Azərbaycan Demokratik Respublikası haqqında iddialarının gülünc olduğunu demişdir. Eyni zamanda, Məhəmməd Əmin Rəsulzadə demokratik dünya qarşısında elmi dəlillərlə sübut edirdi ki, bütöv, qüdrətli, azad Azərbaycan dövlətinin qurulması prosesi, tarixi proseslərdən asılı olaraq geci-tezi baş verəcək və bu, qarşısıalınmaz prosesdir.

Azərbaycan Parlamentinin sədri Əli Mərdan bəy Topçubaşov da Avropada yaşadığı 1919-1934-cü illərdə demokratik dünyada gedən prosesləri dərindən təhlil edərək Məhəmməd Əminlə eyni məfkurədə, eyni məsləkdə olduğunu etdiyi çıxışlarında və yazdığı kitablarında bildirmişdir. Əli Mərdan bəyə görə bütöv Azərbaycana gedən yol Şimali Azərbaycan Respublikasından keçir. Burada da məntiq belədir: "Demokratik dövlətlər əvvəlcə ruslara, sonra da farslara öz dövlətlərini qurduracaqdır. Nəticədəsə Azərbaycan türkləri öz bütöv Azərbaycan dövlətinə sahib duracaqdır!!!". Azərbaycan Cümhuriyyəti mövcud olduğu 23 ay müddətində Azərbaycan hökumətində 35-ə qədər nazir fəaliyyət göstərmişdir. Həmin nazirlərin çoxunun yaş həddi 30-la 45 yaş arasında idi.

120 millət vəkilindən ibarət olan Azərbaycan parlamenti 1918-ci ilin 7 dekabrında fəaliyyətə başladı. Parlamentdə ölkədə yaşayan bütün xalqların nümayəndələri və siyasi təşkilatların üzvləri təmsil olunmuşdular. Parlamentin 17 aylıq fəaliyyəti dövründə 270-dən çox qanun müzakirəyə çıxarılmış və onlardan 230-u qəbul edilmişdir.

1917-ci ildə Rusiyada baş verən fevral burjua-demokratik inqilabının qələbəsindən sonra Zaqafqaziyada siyasi prosesləri idarə etmək üçün Zaqafqaziya idarəsi üzrə xüsusi komitə və Zaqafqaziya komissarlığı yaradıldı, lakin bunların heç biri mövcud siyasi vəziyyəti sabitləşdirə bilmədi. 1918-ci ilin aprel ayında yaradılmış Zaqafqaziya Federativ Respublikası da bölgədəki üç əsas millətin mənafeyini qorumaqda aciz qaldı. Bu üç millət müxtəlif vacib məsələlərə münasibətdə bir-birlərinə tam zidd mövqelərdə dururdular. Azərbaycandasa böhran o dərəcəyə çatmışdı ki, onun türk (Azərbaycan) yurdu kimi qalıb-qalmaması sual altında idi. Bu dövrdə erməni hərbi qüvvələri yerli dinc əhaliyə qarşı elan olunmamış ədalətsiz müharibəni şiddətləndirirdi, amansız qırğınlar artıq Qarabağı da bürümüşdü. 1918-ci ilin mart ayına qədər İrəvan quberniyasında 197 kənd darmadağın edilmiş, 100 min 626 nəfərdən artıq türk (azərbaycanlı) əhalisi ya təcavüzün qurbanı olmuş, ya da ev-eşiyini atıb qonşu mahallara pənah aparmışdı. Azərbaycanın şərqində vəziyyət daha dözülməz idi. Gəncə quberniyasında yaşayış məntəqələrinin 27-si tamamilə darmadağın edilmiş, 35-i isə ziyan çəkmişdi. Qarabağda, Şuşada, Cəbrayılda, Zəngəzur mahallarındasa dağıdılan və ziyan çəkən məntəqələrin sayı 157 idi. Həmin vaxtda Bakı quberniyasında 33 yaşayış məntəqəsi büsbütün, 196-sı isə qismən dağıdılmışdı. 1918-ci il martın sonlarında Bakıda on minlərlə (türk) əhali, bundan daha çox əhali isə Quba, Şamaxı və ətraf kəndlərdə azğın erməni dəstələrinin qurbanı olmuşdu. 1918-ci ilin aprelində təşkil olunmuş Bakı quberniyası Xalq Komissarları Sovetinin rəhbərləri nəinki Azərbaycan türklərinə öz müqəddəratını təyin etmək hüququnu rəva görmürdü, hətta başçıları Şaumyan "Azərbaycan" sözünü qəbul etməkdən imtina edirdi. Həmin vaxtda Əmiryanın redaktor olduğu "Bakinskiy raboçiy" qəzeti "Azərbaycan" sözünü məsxərəyə qoymaqdan belə çəkinmirdi. Tariximizin belə bir ziddiyyətli, ağrılı-acılı, qanlı-qadalı dövründə Azərbaycan türklərinin Türkiyəyə rəğbəti artırdı. Bəllidir ki, çar Rusiyasında Azərbaycanın müsəlman əhalisi orduya çağırılmırdı. Milli qüvvələr Şimali Azərbaycanın gələcəyini Cənubi Azərbaycan və Dağıstanla birləşməkdə, Türkiyə ilə sıx ittifaq yaratmaqda görürdülər. 1918-ci ilin aprel ayında Azərbaycan nümayəndələri Türkiyənin hərbi naziri Ənvər paşa ilə görüşəndə Ənvər paşa onlara bunu məsləhət görürdü. Türkiyə ilə ümumi sərhədləri olan müstəqil Azərbaycanın Osmanlı imperiyası ilə Avstriya-Macarıstan formasında daha sıx ittifaq yarada bilməsi imkanı olmalıdır. Həmin dövrdə Ənvər paşa müstəqil erməni dövlətinin yaradılmasına öz münasibətini belə bildirdi: "Türkiyə müstəqil erməni dövlətinin yaranması əleyhinə deyil, bir şərtlə ki, ingilis-rus siyasəti xatirinə erməni xalqı türklərə qarşı intriqalara son qoysun". 26 may 1918-ci ildə Gürcüstan Zaqafqaziya Federasiyasından çıxıb öz müstəqilliyini elan edəndən sonra seymin müsəlman fraksiyası Azərbaycan Milli Şurası şəklində quruldu və 1918-ci ilin 28 mayında "İstiqlal bəyannaməsi" ilə müstəqil Azərbaycan Demokratik Respublikasının (ADR) yarandığını və mövcud şəraitdə Azərbaycanın müstəqilliyi uğrunda açıq mübarizənin milli qurtuluşun yeganə düzgün yolu olduğunu bildirdi və həmin tarixi sənədə əsasən Müəssislər Məclisi çağrılana qədər Milli Şura ölkədə ali qanunverici, müvəqqəti hökumət isə ali icraedici orqan hesab olundu.

Azərbaycan Milli Şurası və hökuməti təhrikçi hücumlara baxmayaraq, dövlət quruculuğu işini davam etdirir və parlamentin açılışına hazırlaşırdı. Nəhayət, Azərbaycan parlamenti 1918-ci il dekabr ayının 7-də təntənəli surətdə açıldı. Fətəli xan Xoyski hakimiyyəti parlamentə verdi, yeni hökumətin təşkili isə yenə də Fətəli xan Xoyskiyə tapşırıldı. Yeni hökumətin təşkilindən az sonra Tomson elan etdi ki, Fətəli xanın başçılığı ilə yaradılmış Azərbaycan hökumətini ölkə daxilində yeganə qanuni hakimiyyət orqanı hesab edir. Tomson Rus Milli Şurasına Azərbaycan hökumətini tanımaq təklifi etməsinə baxmayaraq, bu qaragüruhçu şovinist təşkilat milli hökuməti tanımaqdan boyun qaçırdı. Biçeraxov dəstəsinin dövlət çevrilişi cəhdinin üstü açıldıqdan sonra Azərbaycan hökumətinin qəti tələbi ilə ingilislər "Qafqaz-Xəzər hökuməti"ni qanundankənar elan edib qiyam rəhbərlərini 48 saat müddətində Bakıdan uzaqlaşdırdı, erməni hərbi hissələri də tərk-silah edilib buraxıldılar. 1918-ci ilin dekabrından ingilis komandanlığının Bakıda qoyduğu məhdudiyyətlər götürülməyə başladı.

1919-cu ilin aprelində Bakıda ingilis general-qubernatorluğunun ləğvi ilə Gəncədə təşkil olunmuş ilk Azərbaycan alayı paytaxta daxil oldu və xalq bunu bayram etdi. Aprel ayında kabinet dəyişikliyi oldu və Azərbaycan hökumətinə Nəsib bəy Yusifbəyli başçılıq etməyə başladı. Elə həmin vaxtdan ingilis hərbi hissələrinin Qafqazı tərk etməsi başladı və bu avqust ayında sona çatdı.

Türkiyə hökuməti yanında Azərbaycanın rəsmi nümayəndəsi Əli Mərdan bəy Topçubaşov idi. O, xarici ölkələrin Türkiyədə olan nümayəndələri ilə görüşlər aparır, Azərbaycan Respublikasının yaranması, hazırkı vəziyyəti və dünya ölkələrilə diplomatik əlaqələr yaratması məzmununda rəsmi memorandum təqdim edirdi. İran tərəfi yeni yaradılan dövlətin "Azərbaycan" adlandırılmasını böyük səhv adlandırırdı. Onu da deməyi unutmurdu ki, İran gələcəkdə özünün tarixi torpaqlarını tələb edəcək və ona sahib duracaq. Onun bu əsassız tələbi Əli Mərdan bəyin kəskin etirazı ilə qarşılanırdı.

Azərbaycan hökuməti adından Əli Mərdan bəyin Avropanın bir sıra ölkələrində siyasi və konsul nümayəndəliyi yaratmaq təklifi soyuq qarşılanırdı.

Paris Sülh Konfransı tərəfindən göndərilmiş nümayəndə heyətinin Azərbaycanda apardığı təhqiqat bu məmləkətin əhalisini müstəqil dövlət şəklində idarə etməyə qadir və layiq olduğunu göstərdi. Vilson prinsiplərindən doğan yeni yaranmış dövlətin şərtlərinə Azərbaycan tam cavab verirdi. Bu şərtlər aşağıdakılardan ibarət idi: müstəqillik iddiasında olan hər bir millət fiziki, zehni, dini-mənəvi xüsusiyyətlərinə görə seçilməli, həmin millət öz müqəddəratını özünün təyin etməsinə qabil olduğunu göstərməli, öz xərcini ödəmək üçün iqtisadi-təbii şəraitə və maliyyə vəsaitinə malik olmalı, xarici təcavüzdən özünü qoruya bilməli: əvvəllər tərkibinə daxil olduğu ölkə hökumətinin zülmünə məruz qalmış olmalı idi. Nəhayət, 1920-ci il yanvarın 11-də Lord Kerzonun təklifi ilə Paris Sülh Konfransının ali şurası Azərbaycanın və Gürcüstanın istiqlaliyyətinin de-fakto tanınması haqqında yekdilliklə qərar qəbul etdi.

Fəzail İSMAYIL BÖYÜKKİŞİ.

# Böyük ürəkli müdrik insan



**Mənə görə, bütün yaxşılıqların kökündə səmimiyyət dayanır. Bu ali keyfiyyətə malik olan hər bir şəxs həyatı boyu insanlarla davranışında həssas olur. Onlar özlərinin zəkası, humanizmi, nəcibliyi, xeyirxahlığı, prinsipiallığı, düzlüyü ilə seçildiklərindən cəmiyyətdə böyük rəğbət və sevgilə qarşılanırlar. İnsanlar belə şəxsiyyətlərə inanır və onların işığını daim öz üzərlərində hiss edirlər.**

**Bütün bunları özünün həyat tərzində, fəaliyyətində yaşadan və mənəvi zənginliyi ilə seçilən, böyük ürəyə sahib olan insanlardan biri, mənim üçünsə birincisi Ədibə Mir Cəlal qızı Paşayevadır. Onunla uzun illər çiyin-çiyinə çalışdığım və ünsiyyətdə olduğumdan, bəlkə də indiki anlarda haqqında söz demək, xarakterik xüsusiyyətlərindən danışmaq müəyyən mənada asandır. Lakin bir ziyalı, pedaqoq kimi görünən və görünməyən tərəflərini açmaq, təqdir etməkdə bir qədər düşünməli oluram. Bunun da başlıca səbəbi Ədibə xanımın son dərəcə təvazökar olmasıdır. Onun fikrincə, həyatda yaxşılıqlar etmək elə insana xas olan xüsusiyyətdir ki, bunu hər kəs, hamı bacarmalıdır. Amma elə bir məqam yetir ki, qəlbən, ruhən bağlı olduğun, hər zaman sözünə, məsləhətinə ehtiyac duyduğun bir şəxsiyyət haqqında söz demək marağın yaranır. Bir də ki, illərlə təmasda, xoş münasibətdə olmağından qürur duyduğun nəcib bir insan haqqında xoş söz deməyin özü ona bəslədiyin böyük ehtiramın göstəricisi deyilmi...**

Bəlkə də yuxarıda qaraladığım fikirlərin - bütün yaxşılıqların doğurduğu keyfiyyətlərin hamısının Ədibə xanımın timsalında cəmləşdiyini demək nə yenidir, nə də qeyri-adi. Çünki o, elə bir ailədə doğulub, boya-başa çatıb ki, bu xüsusiyyətlər məhz oradan, kökdən-nəsildən gəlir. Bu ailədə ilkin tərbiyə, davranış, təhsilə, elmə maraq elə bir xətlə aparılıb ki, belə bir sağlam mühitdə hər kəsin layiqli, nümunəvi bir vətəndaş kimi yetişməsi zəruriydi, mütləq idi. Həyat yollarında inamla, əzmlə addımlamaq, qarşıya qoyulan məqsədlərə çatmaq da əzəl başdan ailədə qoyulan qayda-qanunlara söykənirdi. Ailədə övladları bir şəxsiyyət olaraq yetişdirmək, cəmiyyətə hazırlamaq, xalqa xidmət ruhunda tərbiyə etmək görkəmli yazıçı, ədəbiyyatşünas-alim, pedaqoq, ən başlıcası da böyük İnsan Mir Cəlal Paşayevin həyat amalı olub. Və nə xoş ki, neçə nəslin ustadı, müəllimlər müəllimi bu məqsədini gerçəkləşdirməyə nail olub. Ədibə xanım da ailənin digər övladları kimi həyatı boyu atanın qoyduğu qayda-qanunlara öz əməli işləri ilə riayət edib, arzuları, ümidləri doğrulda bilib...

Ədibə Mir Cəlal qızı Paşayeva 1943-cü il iyulun 18-də Bakı şəhərində doğulub. 1960-1965-ci illərdə Azərbaycan Dövlət Universitetində təhsil alıb. On il (1969-1979) universitetdə rus ədəbiyyatı kafedrasının müəllimi, sonra isə baş müəllim olub. 1988-ci ildən xarici tələbələr üçün rus dili kafedrasının müdiri vəzifəsində çalışıb. Ədibə xanım 2004-cü ildən humanitar fakültələr üzrə rus dili kafedrasının müdiridir. Onu da xatırladaq ki, professor Ədibə Paşayevanın tədqiqat sahəsi Linqvodidaktika və rus ədəbiyyatı tarixidir. O, mütəmadi olaraq beynəlxalq seminarlarda, simpozium və konfranslarda maraqlı məruzələrlə çıxış edir. Bu illər ərzində Ədibə xanım pedaqoji fəaliyyətində olduqca mükəmməl işlərə imza atmışdır. Belə ki, elmi tədris proqramları, dərs vəsaitləri yazmış, onları tələbələrin, elmi ictimaiyyətin ixtiyarına vermişdir. Bunların sırasında "Rus dili" (Beynəlxalq münasibətlər və beynəlxalq hüquq fakültəsinin xarici tələbələri üçün dərs vəsaiti) (2004), "Ədəbiyyat üzrə dərs vəsaiti" (2005), "Filologiya fakültəsinin tələbələri üçün metodik göstərişlər" (2005), "XVIII əsr rus ədəbiyyatının tarixindən" (proqram) (2006), "Rus dili dialoqlarda" (2006), "Rus dili monoloqlarda" (2007) kitablarını xüsusi vurğulamaq lazımdır.

Ailədə və cəmiyyətdə, pedaqoji sahədə özünün fədakar çalışmaları ilə böyük etimad qazanan, nüfuza sahib olan Ədibə xanım Paşayevanın keçdiyi həyat yolu maraqlı və zəngin olmuşdur. Onun bütün həyatı bu gün də böyük məbədgah sandığımız ali təhsil ocağı, Bakı Dövlət Universiteti ilə bağlıdır. Artıq 30 ildir ki, o, burada sabahımız olan gənclərin hərtərəfli yetişməsi, elmi biliklərə yiyələnməsi, əsl vətəndaş olması yolunda böyük səylə, əzmkarlıqla çalışır. Humanitar fakültələr üzrə rus dili kafedrasına rəhbərlik edir. Ədibə xanımın təşkilatçılığı, həddən ziyadə qayğıkeş olması, həmkarları tərəfindən böyük rəğbətlə qarşılanır. Bunları hər birimiz - kafedranın əməkdaşları da, tələbələr də görür və qiymətləndirir. Bu da əlbəttə ki, işimizə, təhsilin səviyyəsinə özünün müsbət təsirini göstərir. Ədibə xanım evinə-ocağına, nəsil-nəcabətinə nə qədər bağlı və sadiqdirsə, çalışdığı, illərini xərclədiyi elm ocağına, həmkarlarına və doğma kollektivə də o dərəcədə bağlıdır. Çünki əvvəldə qeyd etdiyimiz kimi, Ədibə xanım ilk olaraq atası, böyük yazıçı, ədəbiyyatşünas alim, pedaqoq Mir Cəlal Paşayevin məktəbini keçmişdir, onun dərslərindən bəhrələnmişdir. Onun böyüdüyü, yetişdiyi mühit elmi-ədəbi ziyalılar mühiti olmuşdur. Bu məktəb təkcə bir ailəni yox, yüzlərlə, minlərlə vətəndaşı yetişdirmiş, müstəqil həyata hazırlamışdır. Bu təlim-tərbiyə ocağı müdavimlərinə sadəliyin, təvazökarlığın, mənən böyüklüyün insan üçün misilsiz dəyər, zinət olduğunu da mənimsətmişdir. Bu məktəbdə gələcəyin böyük alimləri, sənətkarlar, yazıçı və şairlər yetişmişdir. Belə deyirlər ki, Mir Cəlal müəllimin ocağının, məktəbinin yetirmələri, məzunları aldıqları dərslərin sayəsində təmizlənmiş, durulub-saflaşmış, gözü-könlü tox insanlar olarmış. Belə bir məktəbin ənənəsindən doğan işığın bir parçasını da bu gün bizlərə Ədibə xanım bəxş edir. Ədibə xanımın müxtəlif vaxtlarda aldığı mükafatlar - "Tərəqqi" medalı, "Qabaqcıl təhsil işçisi", "Əməkdar müəllim" fəxri adları da zəhmətinə verilən qiymətin bariz göstəricisidir.

Ədibə xanım ünsiyyətdə olduğu bütün insanlara qarşı həssasdır, etik qaydalar çərçivəsində davranan nəcib xüsusiyyətlərə malik bir şəxsiyyətdir. Xoşüzlü, xoş simalı bu xanım sanki hamımızın doğmasıdır. Çünki onun xarakterində bütün yaxşılıqların izi, əksi var və bütün bunları onunla həyatda, iş prosesində əlaqəli olan hər kəs duyur, hiss edir. Bu keyfiyyətlərin daşıyıcısı olan Ədibə xanımın qəlbində daim vətənpərvərlik, insansevərlik eşqi çağlayır. Ədibə xanım sevilən və sevən insan olduğu üçün bu qədər saf, təmiz sevgilərlə dolu ürəyin sahibidir. Ailədə bu duyğuların əlahiddə yeri olduğundan o, həyatının qoşa qanadı olan ömür-gün yoldaşı, Milli Təhlükəsizlik Nazirliyinin polkovniki, cəsarət və məğrurluğun mücəssəməsi olan Eldar Qasımovla çox ailələrə örnək olacaq bir ömür yaşayıbdır.

Ədibə Paşayevanı bir pedaqoq kimi başqalarından fərqləndirən cəhətlər çoxdur. Hər bir tələbənin xarakterini duyaraq, müəyyən edərək, onda elmə, tədris etdiyi fənnə, bunlarla yanaşı, həyata, insanlara böyük maraq və sevgi yaratmaq müəllim, vətəndaş olaraq ümdə vəzifələri sırasındadır. Onun dərs dediyi çoxlu sayda tələbələri bu gün özləri həyatımızın müxtəlif sahələrində çalışır, öz zəhmətləri və müəllimlərindən əxz etdikləri insani keyfiyyətləri ilə cəmiyyətdə sayılıb-seçilirlər. Və onlar Ədibə xanımın tələbələri olmaqdan fəxarət hissi duyduqlarını, onun təkrarolunmaz pedaqoq qabiliyyətindən, bacarığından, dərin məzmunlu mühazirə və elmi mülahizələrindən bəhrələndiklərini həmişə etiraf edirlər. Təbii ki, bütün bunların sorağını eşitmək hər müəllimə nəsib olan səadət deyil. Doğrudan da, böyük intellekti olan insan hansısa bir sahənin xiridarıdırsa, belə bir elmi potensiala, öyrətmək, yetişdirmək qabiliyyətinə malikdirsə, o, sözün həqiqi mənasında, işıqlı bir şəxsiyyətdir. Ədibə xanım bu mənada, həqiqətən, çox xoşbəxtdir. Onun kafedrada apardığı böyük işlər, hər kəsə, hamıya qayğısı isə başqa bir yazının mövzusudur. Tədris prosesinə, elmi araşdırmaların üzə çıxarılmasına, ölkə daxilində və xaricdə geniş intişarına, dərsliklərin və proqramların hazırlanmasına, araya-ərsəyə gətirilməsinə xüsusi səy və bacarıqla çalışması Ədibə xanımın elmi-pedaqoji fəaliyyətinin əsasını təşkil edir. Bu da kafedramızda görülən işlərin öz qaydasında, səmərəli şəkildə aparılmasına təkan verir, uğurlar qazandırır. Hər bir əməkdaşının ən kiçik uğuruna böyük ürəklə yanaşan Ədibə xanım pedaqoji fəaliyyətimizlə yanaşı, respublikamızın böyük inkişafı yolunda baş verən ictimai-siyasi proseslərə, yeniliklərə, dövlətçiliyimizin qorunması və möhkəmlənməsinə bir vətəndaş olaraq öz işimizlə dayaq olmamızı hər zaman bizə tövsiyə edir. İctimai-ədəbi aləmdə yer alan bütün mühüm və əlamətdar tarixlər, yubileylər, fərmanlar kafedramızın iş planına daxil edilərək, vaxtaşırı təntənəli surətdə qeyd edilir. Bütün bunlar ilk növbədə gələcəyin qurucularının, tələbələrin, gənc kadrların, xüsusən də xarici ölkələrdən gəlmiş tələbələrimizin dünyagörüşünün formalaşmasında, ölkəmiz haqqında geniş məlumatlara malik olmalarında böyük əhəmiyyət kəsb edir. Ədəbiyyatımıza, eləcə də dünya ədəbiyyatına böyük maraq və sevgi ilə yanaşmaq, ədəbi gecələr və anım günlərini yüksək səviyyədə təşkil etmək də Ədibə xanımın kafedranın əməkdaşlarını cəlb etdiyi, hamılıqla iştirakçısına çevirdiyi işlər, tədbirlər sırasındadır. Əlbəttə, bütün bunlar haqqında ayrılıqda bəhs etmək kiçik bir məqalənin həcminə sığmadığından, indiki məqamda onları sadəcə xatırlatmağı məqsədəuyğun saydıq.

Ədibə xanım Paşayeva böyük erudisiyaya, yüksək mədəniyyətə sahib olan və bu keyfiyyətləri ilə hər mənada nümunə olmağa layiq insandır. O, xeyirşərimizdə, ağrılı-acılı günlərimizdə, sevincli anlarımızda da yanımızdadır. Nəcabətli bir ailənin övladı olaraq, özünün istiqanlılığı, əxlaqı, bütün insani keyfiyyətləri onu hər kəsə, hamıya bu qədər doğmalaşdırıb, sevdirib. Ən çətin məqamlarda, problemlərimizin həllində onunla bölüşür, ondan məsləhət alırıq. Səmimiyyətindən irəli gələn səbir, dözüm, tərəf-müqabilini dinləmək və yol göstərmək bacarığı, sözü və əməli yardımı bizi duyğulandırır.

Ədibə xanım həm də çox maraqlı həmsöhbətdir. Ondan həyatın istisini də, soyuğunu da dəyanətlə qarşılamağı və mətanətli olmağı öyrənmişik. Bu mənada, Ədibə xanım mübaliğəsiz və həqiqi anlamda örnək olacaq bir insandır. Hərdən düşünürəm ki, aləmi əlində çıraqla gəzsən, belə hərtərəfli, intellektual səviyyəli, hər kəsə dost, həmdəm ola biləcək bir insanı tapmaqda adam çətinlik çəkər, aciz qalarsan.

İnsan var tutduğu mövqe, qalxdığı zirvə başını dumanlandırır, adamlardan üz çevirir, gen gəzir. İnsan da var, ucaldıqca əlçatan olur və bu minvalla ürəklərdə də, nəzərlərdə də ucaldıqca ucalır. Necə deyərlər, bar verdikcə, başını aşağı salır. Ədibə xanım hər zaman ikincilərdən olub.

Mən Ədibə xanımın ömür-gün yoldaşı Eldar Qasımovun da comərd kişilərdən olduğunu bildiyim üçün həyatına, keçdiyi ömür yoluna həsr olunmuş "Peşəkar Zabit, Alicənab İnsan" adlı çox sanballı kitabla tanışam. Eldar müəllimi həyatda da tanıdığımdan, düşünürəm ki, Ədibə xanım həm də böyük ailə səadətini gözkönül dolusu görmüş xoşbəxt, həm də cəfakeş, qayğıkeş ömür-gün yoldaşı olubdur. Həyatı boyu çətin, məsuliyyətli vəzifələrdə vətəninə bacarıqla və qeyrətlə xidmət edən, xalqının təəssübünü çəkən Eldar Qasımovun da amalı yaxşılıqdan ibarət olub. "Çalışın yaxşılıq edin, istənilən formada gec, ya tez o yaxşılıq sizə qayıdacaq. Sizə qayıtmasa da, balalarınızı tapacaq", deyə tövsiyə edirmiş Eldar müəllim. Ədibə xanımla Eldar müəllim keşməkeşli, mənalı və gənclərə örnək olacaq bir ailə həyatı yaşayıblar. Onların tərbiyə edib böyütdüyü gözəl, ağıllı övladları, nəvələri gözlərinin nuru timsalındadır...

Qayğıkeş ana, əvəzolunmaz dost, yanımcıl insan - bibi, xala, vəfalı ömür-gün yoldaşı, məğrur və gözü-könlü tox Allah adamı olan Ədibə xanım ətrafına və doğmalarına olduğu kimi, öz daxili dünyasına da, xarakterinə də hər zaman sadiq qalan insanlardandır. Bu da onu göstərir ki, sabit xarakterli, bütöv əqidəli insanlar həyat üçün, xalq üçün yaşayan fərqli, aqil, müdrik şəxsiyyətlərdir...

**P.S.** Bu yazını əzizimiz Ədibə xanım Paşayevanın doğum günü ərəfəsində özümün və həmkarlarımın adından qələmə aldım. Amma ürəyimdən keçirdiyim, yazıya almadığım o qədər fikirlərim qaldı ki. Sağlıq olsun...

Paklıq və müqəddəslik mücəssəməsi olan əzizimiz Ədibə xanım, Sizə uzun ömür, cansağlığı, əzizlərinizlə birlikdə sevinc dolu illər arzulayırıq. Nə yaxşı ki, varsınız!

**Sona ÇƏRKƏZ,**
**BDU-nun müəllimi.**

# Sayat Nova haqqında həqiqətlər

***(Aşıq, azərbaycanlı və müsəlman Şeyx Sayat Novaya - Harut Seyidə qarşı 200 ildən artıq davam edən erməni terroru)***

Ermənistan hakim dairələri Sovet imperiyasının dağılması ərəfəsində fürsətdən istifadə edib öz havadarlarının köməyi ilə bütün azərbaycanlıları qədim ata yurdundan silah gücünə qovub çıxarmağa, Dağlıq Qarabağı zəbt etməyə hazırlaşmağa başladıqları bir vaxtda Azərbaycanda bu fəlakətin qarşısı alınmadı. Bakıda Azadlıq meydanında hər gün etiraz mitinqi keçirən xalqın səsi eşidilmədi.

O zaman Azərbaycan MK rəhbərliyi Qarabağa Azərbaycan-erməni dostluğu haqqında söhbət aparmağa mühazirəçilər göndərirdi.

Mənə də xüsusi tapşırıqla Sayat Novanın şeirlər toplusunu, Azərbaycan, gürcü və erməni dilində əlyazması olan "Dəftər"ini ön sözlə nəfis şəkildə tərtib və nəşr etdirmək tapşırılmışdı. Biz dost rolunda çıxış etməklə "donuzu darıdan çıxarmaq niyyətində idik".

Cənubi Qafqazda Sayat Nova xalqlar dostluğunun nəğməkarı kimi təbliğ olunurdu. Onun yaradıcılığı ilə yaxından tanışlıq məndə qəti bir fikir oyatmışdı ki, əgər Sayat Nova ermənidirsə, "Dəftər"indəki şeirlər onun orijinal əsəri ola bilməzdi. Bu, olsa-olsa Azərbaycan və gürcü dillərini bilən bir erməni aşığının öz repertuarı üçün Cənubi Qafqaz xalqlarının bədii ədəbiyyatından seçmələri öz "Dəftər"inə köçürməsi ola bilərdi. Orta əsr Azərbaycan poeziyasına dərindən bələd olan bir mütəxəssis axtarırdım ki, tədqiqat aparıb "Dəftər"dəki şeirlərin müəlliflərini müəyyənləşdirsin. Onda məlum olardı ki, bu şeirlər ayrı-ayrı şairlərə məxsusdur. Mən uzun illər bu barədə düşünürdüm.

Sayat Əmirzadənin "Respublika" qəzeti redaksiyasına təqdim etdiyi tədqiqat əsəri mənim heyrətimə səbəb oldu. Sən demə, Sayat Nova azərbaycanlı imiş.

İstedadlı tədqiqatçı alim S.Əmirzadə həmkarı Sara Sərablı ilə Sayat Novanın külliyyatını dərindən-dərinə araşdırmaqla təkzib edilməyən tutarlı dəlillərlə iki yüz ildən artıq sirrini özündə gizlədən, erməni mənəvi terrorunu ifşa edən qeyri-adi problemi - açılması mübhəm düyünü açmışlar. Onlar faktlarla Sayat Novanın kimliyini sübut etmişlər.

Necə deyərlər, dərəni xəlvət görən erməni alimləri tülküsayağı özlərinə irsən xas olan xəyanət yolu ilə Cənubi Qafqazda millətlər arasında üç dildə çalıb-çağıran nəğməkarın erməni əsilli olmasını təbliğ etməklə özününküləşdirə bilmişlər. Mənəvi terror erməniliyin hiylə və qəddarlıqla reallaşdırdığı yaşam həyat tərzidir.

Müəlliflər S.Əmirzadə və Sara Sərablının birgə elmi axtarışları nəticəsində orta əsrlərin dumanında dolaşıqlığa düşən sayatnovaşünaslığa tam aydınlıq gətirilmişdir.

Gürcüstanın "Kvira" İnformasiya Agentliyində və "Respublika Qruziya" qəzetində görkəmli alim Bondo Arveladze elmi ictimaiyyətə ünvanladığı məqaləsində Tbilisidə rus dilində "Merani" nəşriyyatının 2017-ci ildə nəşr etdiyi "Sayat Nova: Mən dostumun hicrilə oyandım" monoqrafiyasında yüz əlli ildən çox erməni əsirliyində olan Sayat Nova və onun poetik irsi haqqında gizlədilmiş, təhrif olunmuş həqiqətin aşkara çıxarılmasından söhbət açır.

"Respublika" qəzeti redaksiyası böyük zəhmət və ciddi axtarışların nəticəsində Sayat Nova haqqında həqiqəti "kəşf" edən müəlliflərin dəyərli əsərinin məzmununu ehtiva edən, dolğun təsəvvür yaradan açıqlaması ilə oxucuları tanış etməyi vacib bilir.

**Teymur ƏHMƏDOV.**

**(əvvəli 14, 15 və 17 iyul tarixli saylarımızda)**

Sayat Novanın bioqrafiyası, xüsusən onun həyat tərzi, erməni monastırında dustaq edilməsi və ölümü səbəbləri çoxsaylı spekulyasiya və mübahisə predmeti olmuş, bu da öz növbəsində müxtəlif bədii uydurma və fərqli miflərin yaranmasına zəmin yaratmışdır. Prof. Q.Abov yazır ki, onun atası - maxtesi vətənini tərk edərək sürgün edilib ölkədən ölkəyə dolaşan ermənilərdən olmuşdur. Görünür o, Yerusəlimə gedib "maxtesi", yəni Yerusəlimdə olmuş fəxri adını almaq imkanına malik, böyük maddi vəsaiti olan sənətkar, yaxud tacir imiş.

Bu məlumat S.Qaysaryan tərəfindən şübhə altına alınır: "atasına gəldikdə onun adına müqəddəs yerləri ziyarət etmək üçün Yerusəlimə zəvvarlığa getmiş adamlarda olduğu kimi fəxri "maxtesi" sözü əlavə edilirdi. O zaman belə fəxri adı adi təhkimçi insanın daşıya bilməsi ağlabatan deyil".

Sonralar İ.Nalbandyan bu haqda məlumat verərkən artıq əlyazma mənbəyinə istinad edir: "Şairin valideynləri haqda məlumatlarımız kifayət qədər qənaətbəxşdir. Kaxi kəndində üzü köçürülmüş bir əlyazmanın konofonunda Sayat Nova atası maxtesi Karapet və anası Sarranın adının çəkilməsini istəmişdir. Şairin atası minlərlə erməninin taleyini yaşamışdır: doğma şəhəri Hələbi tərk etmiş və Gürcüstanda sığınacaq tapmış və orada Sarrayla rastlaşıb evlənmişdir. "Maxtesi" titulu onu göstərir ki, Karapet Yerusəlimin müqəddəs yerlərini ziyarət edib".

Lakin bu məlumatlardan Sayat Novanın atasının adının nə olduğunu anlamaq çox çətindir, belə ki, çoxsaylı müəlliflərin bu haqda söylədikləri müxtəlifdir. Bəziləri Karapet adı haqda danışanda müqəddəs incəsənət hamisini nəzərdə tutur, digərləri bunun Sayat Novanın atasının öz adı olduğuna inanırlar.

Öz növbəsində erməni yazıçısı Zarzand Daryan özünün "Sayat Nova" romanında Karapetin (guya şairin atası) müsəlmanların "hacı" tituluna malik olmasından xəbər verir. Bu məntiqsiz faktı göstərək: "İndi Arutinin (yəni Sayat Novanın) həvəsi artıq hacı Karapeti narahat etmirdi. Ata oğlundan və onun taleyindən razı idi. Bir çox qonşu ona həsəd aparırdı və onu ağa deyə çağırırdılar, əgər Karapet qürurla hacı adını daşımasaydı: bu hamıya onun Yerusəlimin müqəddəs yerlərini ziyarət etdiyini xatırladırdı".

Beləliklə, erməni müəlliflərinin yalan məlumatlarına söykənərək belə anlamaq olar ki, Sayat Nova müxtəlif dini məzmunlu iki titulun daşıyıcısı olub və bu da son dərəcə çətin izah olunan şeydir. Bütün bunlar onu göstərir ki, bir müəllif "hacı" müsəlman titulunu erməni dilinə "maxtesi" kimi uyğun tərcümə etməmiş, o biri isə əsl titulunun izini saxlamışdır.

Belə ki, orijinalda Azərbaycan dilində yazılmış "Könül" şeirində Sayat Nova söz oyunuyla atasının da, anasının da müsəlman olduğunu ustalıqla şifrələmişdir. O İslam kimliyini bütün müsəlmanlar üçün yaxın olan "Beytim" (Kəbə) sözüylə vermişdir:

*Həqq yaratmış küllü aləm vətəni*
*Aç gözün bu beytim (gör) və tanı,*
*Sayat Nova deyər atam vətəni*
*Soruşanlar ya Hələbdi, ya Adana.*

*Aç gözün bu beytim (gör) və tanı* sözlərilə və ilk iki misradakı bütün deyilənlərə aid olan *bu* hissəciyinin iştirakıla *beytim* sözünün mənasına işarə alınır. Burada şeirdəki beytdən danışılmır, *beytim* sözünün ikinci mənası, yəni *mənim evim* nəzərdə tutulur.

Ensiklopedik "İslam" lüğətindəki məlumatda deyilir ki, ... İbrahim dinini dirçəldərək islam mədinə surələrində əl-beyt, beyt əl-hərəm, əl-beyt əl-muhərrəm, yaxud beyti - "mənim evim", yəni "Allahın evi" — əl-Kəbəyə düzgün sitayiş mərasimini bərpa edirdi". Kəbə Məkkədə İslamın mənəvi mərkəzi və hər bir müsəlmanın mənəvi vətəni sayılır.

"Slova velikix mudreçov" adlı başqa şeir var və bu, erməni tədqiqatçılarına Sayat Novanın erməni millətindən olduğunu *sübut etməyə* xidmət edir. Rus mətni belədir:

*Tem ktos rassvetom na Vostok*
*Ne vzqlyanet, — eto im ne vprok.*
*Sayat Nova ot nix dalek,*
*On v vere tverd, on armyanin.*

Lakin tərcümənin "Dədə olan"ın orijinalıyla müqayisə tərcüməsinin azərbaycanca orijinalı təhrif etdiyini göstərir. Azərbaycanca mətn uzun axtarışlardan sonra nəhayət ki tapılıb.

*Gündoğanda qibləgahi,*
*Kəcbaxanlar çəksün vahi,*
*Sayat Nova din İsayi*
*İnkar etməz, ermənidür.*

Bu misraları təfsir edərkən aydın olur ki, Sayat Novanın düşüncələrində dinin ritual təlimatları *qibləgaha* münasibət baxımından qiymətləndirilir.

*Qibləgah* sözünün mənası: 1. dini ibadətin müqəddəs yeri, Allaha ibadət üçün bina, Kəbə-Məkkədə müsəlmanların ibadət zamanı üzlərini tutduqları müqəddəs məbəd.

İstifadə olunan sonrakı - *gündoğan* sözünün mənası: 1. Şərq (gün çıxan yerdə üfüqün bir hissəsi); 2. gün çıxan zaman. 3. Şərq tərəf.

Azərbaycanca şeirin rusca tərcüməsində *qibləgah* - Kəbə sözü atılıb, dindarların çevrildiyi istiqamətin təsviri üçünsə iki dəfə *gündoğan* sözü - "s rassvetom... na Vostok..." istifadə olunub.

Şair Azərbaycan dilində birinci misra üçün elə sintaktik konstruksiya seçir ki, *gündoğan* sözü lüğətdəki şəklindən fərqli qrammatik funksiyada istifadə edilsin. *Qibləgah*, (Kəbə) sözüylə əlaqə bu xüsusda reallaşır və birinci misra dərin məna daşıyır: "Koqda solnçe rojdaet Kaabu...", yaxud "koqda rassvet rojdaet Kaabu". Şair burada diqqəti günəşin doğması vaxtına, dua zamanına yönəldir (ərəbcə bu "fəcr" — "dan yeri söküləndə şəfəq" adlanır). Müsəlman dua edərkən nə Şərqə, nə də Qərbə üzünü tutur. O üzünü Allahın varlığından və qüdrətindən xəbər verən müqəddəs Məkkəyə tərəf çevirir. Sayat Nova buna görə insanları çəkindirərək deyir: *Qoy Kəbəyə kəc baxanlar qorxsunlar.* Bu sözlər dua vaxtı qanunları gözləməyə çağırır. İslamda namaz zamanı istənilən hərəkətə xüsusi əhəmiyyət verilir. C.Sübhan qeyd edir ki, İmam Qəzəli özünün sufiliyə aid məşhur "İhya əl-Ülum" əsərinin bütöv bir bölməsini təharət və namaza həsr etmişdir və orada o, bu hərəkətlərin mənəvi izahını və hər bir hərəkətin icrasının daxili əhəmiyyətini verməyə çalışır. Məsələn, dua edənin üzünü Məkkəyə sarı çevirdiyindən danışarkən o söyləyir: "Bu üzün başqa istiqamətlərdən Allahın Evinə sarı dönməsidir. Siz hesab edirsiz ki, qəlbinizi başqa işlərdən Allahın işlərinə sarı çevirmək arzuolunmazdır? Bəlaya düşərsiz! Zira, bu istəkdən yüksək heç nə yoxdur. Bu zahiri hərəkətlərlə yalnız daxili fəallığın işə salınmasıdır".

Sayat Nova elə həmin fikri qısa şəkildə ifadə etmişdir. Müqayisə edək "bəlaya düşərsiz" - İmam Qəzəli; *qoy qorxsunlar* - Sayat Nova.

İslamın qibləgahı Kəbəyə ehtiram göstərmək, ondan uzaqlaşmağı böyük günah sayan şair bu sözləri söyləyir - Sayat Nova din İsayi inkar etməz, ermənidir. Bu misralar burada rusca tərcümədə olduğu kimi əvvəlki mənanı vermir - harada ki İsanın və onun adı çəkilmir. Azərbaycanca mətn Sayat Novanın İsanın etiqad etdiyi dini rədd etmədiyini açıq-aşkar göstərir (bununla Sayat Nova bütün dinlərə və onun ardıcıllarına dözüm və ehtiramını göstərir). Bu oxunuşda "o ermənidir" ifadəsi qətiyyən Sayat Novaya deyil, İsayiyə aiddir.

İsayi xüsusi ismi erməni ruhaniləri arasında geniş yayılmışdı. Məsələn, İ.Q.Çavqavadze özünün "Erməni alimləri və fəryad edən daşlar" kitabında Sayat Nova dövründə İsayi adlı məşhur erməni partiarxının adını çəkir. Görünür, Soyat Nova elə məhz ondan danışır.

Beləliklə, azərbaycanca "Dədə olan" şeiri şairin erməni dininin nümayəndəsi kimi danışmadığını göstərir. "Sayat Nova din İsayi inkar etməz, ermənidir" kimi cümləni ermənilərin dininə meyli olmadığına görə qınanan adam söyləyə bilərdi.

Şairin təxəllüsünün şərhinin müxtəlif variantlarını nəzərdən keçirərək və onun şeirlərinə müraciət edərək bu qənaətə gəlirik: Sayat Nova sufi ideyalarını Tiflisdə yayaraq bunu bütün xristian və müsəlman cəmiyyəti üçün əlçatan etməyə çalışırdı. O, təkcə azərbaycanca, farsca, türkcə deyil, həm də gürcücə və ermənicə şeirlər yazan şair kimi məşhur olmuşdur. Bu ona *Yeni ulduz* - Nova adlanmağa ixtiyar verirdi. "Bilmirsən" şeirində Sayat Nova özünü "ulduz" adlandırır. *"Bəlkə əğyar əli ilə bəxt ulduzum təmiz sönər".*

Adına gəldikdə isə V.Nalbandyan şairin adının "... Arutyun olduğunu söyləyir (erməni dilinin Tiflis dialektində — Arutin). Şairin adının azərbaycanca səslənməsinə "Vaxtıdır" və "Ulduzların istisilə" şeirlərində rast gəlirik. Özü də ermənicədən tərcümədə —




Artun, gürcücədən isə — Harut kimi ifadə olunur. Üstünlüyü gürcücə şeirə verdik, belə ki, Q.Şakulaşvilinin tədqiqatı bizi buna əmin etdi. O yazır: "Yerevan əlyazması Sayat Novanın özünün redaksiyası altında icra edilsə də, burada çoxlu düzəliş və təhriflər var və bunları Teymuraza məxsus əlyazmadan istifadə edərək düzəltmək olar".

Birinci və sonuncu beytləri göstərək:

*İndi deyim özüm kiməm?*
*Nədir işim, nədir peşəm?*
*Harutinəm, təxəllüsüm Sayat Nova -*
*mən bəxti kəm!*
*Savadım var, əlifbeyi*
*mən də yaxşı öyrənmişəm.*
*Göylərə də çatar sözüm,*
*təravəti heç vaxt solmaz.*

Harut adının özü dini mənşəyə malikdir. Quranda iki mələk Harut və Marut adlanır.

Şeyx Sayat Nova - Harut Seyidin poetik yaradıcılığında hər nəğmənin ideyası soydaşları azərbaycanlıların gələcək nəslinə azərbaycanlı və müsəlman olduğunu çatdırmaqdır. Şair bizə anladır ki, hələ həyatda ikən onu erməni "aşığı", erməni qriqoryan dinindən olan erməni kimi təqdim edəcəklərini bilirdi. Və əsas məqsədindəki ikinci istiqamət Vətəninə — **Azərbaycana** qayıtmaq olmuşdur.

Artıq bu gün sözügedən elmi əsərin müəllifləri və rəyçilərinin, Azərbaycanın elmi və ictimai elitasının fikrincə, azərbaycanlı, müsəlman XVIII əsrdə Tiflisdəki sufi qardaşlığının Şeyxi Sayat Novanın öz Harut Seyid adıyla azərbaycanlıların böyük və çoxmilyonlu ailəsinə qaytarılması üçün addımlar atılmasının vaxtı çatmışdır.

**Məqalənin ruscadan tərcüməsi**
**Ülfət KÜRÇAYLININDIR.**

## *Birinci yarımilin yekunları*

# Şəki: dinamik inkişaf təmin edilir





**İyulun 8-də cənab Prezidentimiz İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2018-ci ilin I yarısının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclası keçirilmişdir. İclasda ölkəmizin sənaye potensialının gücləndirilməsi, sosial proqram və layihələrin icrası geniş müzakirə olunmuş, qarşıda duran vəzifələr müəyyənləşdirilmişdir.**

Bu günlərdə Şəki Şəhər İcra Hakimiyyətində keçirilən geniş şura iclasında ötən ilin altı ayında görülmüş işlər müzakirə olunmuş və qarşıda duran vəzifələr müəyyənləşdirilmişdir. Hesabat məruzəsi ilə çıxış edən **şəhər icra hakimiyyətinin başçısı Elxan Usubov** bildirmişdir ki, 2018-ci ilin I yarısında ilkin hesablamalara görə faktiki qiymətlərlə 216 milyon 375 min manatlıq məhsul buraxılmışdır ki, bu da 2017-ci ilin müvafiq dövrü ilə müqayisədə 126 faiz təşkil edir. 2018-ci ilin İ yarısında Şəki rayonunda 703 yeni iş yeri açılmışdır.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin təşəbbüsü və rəhbərliyi ilə ölkədə kənd təsərrüfatının inkişafında yeni mərhələ başlanmışdır.

Şəki respublikamızın ən iri aqrar rayonlarından biridir. Rayonun kənd təsərrüfatının əsas sahələrindən birini taxılçılıq təşkil edir. Rayon ərazisində taxıl istehsalçıları tərəfindən ötən ilin payızında əkilmiş 66774 hektar taxıl sahəsində yetişən məhsulun vaxtında və itkisiz yığılması üçün tərəfimizdən zəruri tədbirlər görülmüşdür. Artıq rayonda 57 min hektar taxıl sahəsi biçilmiş,188 min ton məhsul istehsal edilmiş, orta məhsuldarlıq 33 sentner təşkil etmişdir. Bu il rayonda 220 min tondan çox taxıl istehsalı nəzərdə tutulur ki, bu da ötən ilin istehsalından 11 min ton çoxdur.

Rayonumuz üçün spesifik hesab edilən baramaçılığın, tütünçülüyün, fındıqçılığın inkişafının təmin edilməsi istiqamətində ölkə başçısı tərəfindən qarşıya qoyulan vəzifələrin uğurla yerinə yetirilməsi üçün geniş iş aparılır. Baramaçılığın inkişafında əsas faktor ipəkqurdunun yem bazasının genişləndirilməsidir. Lakin bu il baramaçılıqda mövcud vəziyyət göstərdi ki, ipəkqurdunun yem bazası zəifdir. Qarşıda duran əsas məsələ tut tinglərinin əkin sahələrini genişləndirmək, mövcud sahələrə ardıcıl aqrotexniki qulluq göstərmək, kümxanalar yaratmaq, bu sahə ilə bağlı maarifləndirmə işləri aparmaqdır. Hesab edirəm ki , gələn il bu sahədə bol məhsul əldə etmək üçün bu il qarşıya çıxan çətinliklər geniş müzakirə olunmalı, mövcud nöqsanlar aradan qaldırılmalıdır. Qeyd etmək istəyirəm ki, bir sıra çətinliklərə baxmayaraq rayonumuzda barama istehsalında dinamik inkişaf təmin edilir. Belə ki, 2016-cı ildə rayonda 9,7 ton, 2017-ci ildə 17,9 ton barama istehsal edilmişdisə, bu il 48,2 ton barama istehsal olunmuşdur.

Rayonda istehsal olunan ixracyönümlü məhsullardan birini də tütün təşkil edir. Rayonumuzda tütün əkinlərinin genişləndirilməsi və istehsalın həcminin artırılması daim diqqət mərkəzində saxlanılır. Belə ki, 2016-cı ildə rayonda 785 hektar sahədə tütün əkilmiş və tütün istehsalı 2441 ton təşkil etmişdir. 2017-ci ildə 843 hektar sahədə tütün əkilmiş və 2631 ton tütün istehsal olunmuşdur. 2018-ci ildə isə 877 hektar sahədə tütün əkilmişdir. Son statistik məlumata əsasən artıq rayonda 95 ton tütün istehsal olunub. Tütünçülüyün inkişaf etdirilməsi və istehsalçıların marağının müdafiə olunması məsələsi də Şəki Şəhər İcra Hakimiyyəti tərəfindən daim nəzarətdə saxlanılır.

Təməli cənab Prezidentimiz tərəfindən qoyulmuş Heydər Əliyev Mərkəzinin tikintisi işi sürətlə aparılır. Orijinal memarlıq üslubunda inşa olunacaq və ümumi sahəsi 5 min 629 kvadratmetr olan Heydər Əliyev Mərkəzində ulu öndərin həyat və fəaliyyətinə həsr olunan muzeyin, 230 nəfərlik akt zalının, kitabxananın, sərgi zalının, toplantı və tədris otaqlarının, linqafon kabinetinin, həmçinin digər təyinatlı bölmələrin yaradılması nəzərdə tutulmuşdur. Mərkəz Heydər Əliyev irsinin təbliğində mühüm rol oynamaqla yanaşı, gənc nəslin dünyagörüşünün, bilik və bacarığının artırılmasına hərtərəfli şərait yaradacaqdır. Ərazidə həmçinin Heydər Əliyev Parkı, Bayraq Meydanı və Şəki Şəhər İcra Hakimiyyəti üçün yeni binanın da inşası nəzərdə tutulmuşdur.

Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin sifarişi ilə Şəki şəhəri Zərifə Əliyeva küçəsində "ASAN həyat" kompleksinin tikintisi davam etdirilir. Kompleksdə "ASAN xidmət" inzibati binasının tikintisi ilə bərabər bir sıra köməkçi binaların tikilməsi və geniş bir ərazidə park salınması da nəzərdə tutulmuşdur. Yuxarı Baş tarix memarlıq qoruğunda qala divarları ilə əhatə olunmuş ərazidə "ASAN" layihəsinin bir qolu olaraq "ABAD" keramika üzrə xalq sənətkarlıq mərkəzinin fəaliyyət göstərməsi üçün binada yenidənqurma işləri tamamlanmışdır.

Natiq daha sonra qeyd etdi ki, ötən dövr ərzində 61 nəfər vətəndaş Şəki Şəhər İcra Hakimiyyəti başçısı tərəfindən qəbul edilmişdir. Müddət ərzində şəhər icra hakimiyyəti başçısı tərəfindən 21 səyyar qəbul keçirilmiş, 148 nəfər vətəndaş dinlənilmiş, 178 müraciət səsləndirilmişdir. Müddət ərzində Şəki Şəhər İcra Hakimiyyətinə 1445 müraciət daxil olmuşdur ki, onlardan da 688-i respublikanın yuxarı orqanlarından, 757 ədədi isə birbaşa vətəndaşlar tərəfindən daxil olan müraciətlərdir. Daxil olan müraciətlərin 110 ədədi müsbət, 30 ədədi qismən həll olunmuş, 903 ədədi ilə bağlı müvafiq izahat verilmiş, 1 ədədi əsassız sayılmış, 155 ədədi baxılmaq üçün tabeli qurumlara və aidiyyəti orqanlara göndərilmişdir.

Sonra məruzə ətrafında çıxışlar olmuş və müvafiq qərar qəbul edilmişdir.

**İlham PƏNAHOV,**
**"Respublika".**

# Zaqatala: hərtərəfli inkişaf yolunda

**Respublikamızda sosial-iqtisadi inkişaf proqramlarının uğurla həyata keçirilməsində regionların sosial-iqtisadi inkişafı istiqamətində nəzərdə tutulan proqramların reallaşmasında Zaqatala rayonu da öz layiqli payını verir, öncüllər sırasında inamla addımlayır. 2018-ci ilin birinci yarısının yekunlarına həsr olunan rayon müşavirəsində bu barədə geniş danışılmışdır. İcra hakimiyyətinin başçısı Mübariz Əhmədzadənin hesabat məruzəsində qeyd olunmuşdur ki, 2018-ci ilin birinci yarısında rayonda məhsul buraxılışı 2017-ci ilin müvafiq dövrü ilə müqayisədə 5.6 faiz artaraq 118 milyon 629 min manata çatmışdır. Həmin dövrdə 844 iş yeri açılmışdır. Əsas kapitala yönəldilən investisiyaların həcmi 2.3 dəfə artaraq 10 milyon 335 min manat təşkil etmişdir.**




6 ayda rayonun iqtisadiyyatına qoyulmuş 2 milyon 437 min manat investisiyanın 83,8 faizi xidmət sahələri üzrə obyektlərin, 9,8 faizi yaşayış evlərinin tikintisinə, 6,4 faizi ticarət sahəsinin inkişafına cəlb edilmişdir. İlin birinci yarısında büdcəyə vergi və tədiyyələr üzrə 3,9 milyon manat vəsait daxil olmuş, proqnoz tapşırıqlar 112,3 faiz icra edilmişdir. Bu da keçən illə müqayisədə 293 min manat çoxdur. 2018-cı ilin birinci yarısında 216 pensiya işi təyin edilmiş, 16350 pensiyaçıya xidmət göstərilmiş, 2 milyon 34 min manat məcburi dövlət sosial sığorta haqları yığılmış, proqnoz tapşırıqlar 97,7 faiz icra edilmişdir. Altı ayda rayonda 213 nəfər kimsəsiz qocalara xidmət göstərilmiş, 5236 nəfərə sosial müavinət, 379 nəfərə Prezident təqaüdü, 592 ailənin 2568 üzvünə ünvanlı sosial yardım verilmişdir. 1042 nəfər işaxtaran kimi qeydiyyata alınmış, 360 nəfər münasib işlə təmin olunmuşdur.

Aqrar sahədə həyata keçirilmiş tədbirlər sayəsində rayonda 2018-ci ilin birinci yarısında kənd təsərrüfatı məhsullarının istehsalı 38 milyon 628 min manata çatmışdır. Rayonda cari ilin məhsulu üçün 10933 hektar sahədə payızlıq taxıl, 4002 hektarda qarğıdalı, 182 hektarda günəbaxan, 100 hektarda soya, 1559 hektarda kartof, 2117 hektarda tərəvəz, 3855 hektarda yonca, 797 hektarda bostan bitkiləri əkilmişdir. İlin birinci yarısında 6512 ton kartof, 2439 ton tərəvəz, 249 ton bostan məhsulu, 9,1 ton quru tütün, 1329 ton meyvə, 17,5 ton yaşıl çay yarpağı istehsal olunmuşdur. Hazırda rayonda taxıl biçini işləri davam etdirilir. Hələlik hər hektardan orta məhsuldarlıq 31 sentner təşkil edir. Ötən müddətdə rayonda mal-qaranın cins tərkibinin yaxşılaşdırılması məqsədilə damazlıq təsərrüfatları fəaliyyətini davam etdirmişdir. 2929 baş ana mal süni mayalanmış, 1685 baş cins bala əldə edilmişdir. Rayonda 4321 ton diri çəkidə ət, 18540 ton süd, 9741 min ədəd yumurta istehsal olunmuşdur.

Rayonda cari ildə 750.3 hektar sahədə tütün əkilərək 2265 nəfər mövsümi işə cəlb edilmiş və bu günədək sahələrdən 125 ton tütün istehsal edilmişdir. Bu ilin yaz mövsümündə 352 hektar sahədə yeni fındıq bağları salınaraq, rayonda mövcud fındıq bağ sahələri 18503,5 hektara çatdırılmışdır. Rayonun kümçüləri "Şəki-İpək" ASC-yə 48104.4 kiloqram barama təhvil verərək proqnoz tapşırığı 121.7 faiz yerinə yetirmişlər.

Zaqatala rayonu üçün ənənəvi və ixrac potensialı yüksək sahələrdən biri olan gülçülüyün inkişaf etdirilməsi üçün 2016-cı ildən rayon ərazisində gül plantasiyasının salınmasına başlanılmışdır. "AZ ROSE" MMC-nin sifarişi əsasında Aşağı Tala kəndi ərazisində gül yağı emalı zavodu istifadəyə verilmişdir. Müəssisədə 64 hektar bar verən qızılgül plantasiyasından 120,7 ton qızıl gül ləçəyi tədarük edilmiş, 38,1 kiloqram gül yağı istehsal olunmuşdur. 129 hektar "Qızılgül", 35 hektar sahədə "Lavanda" olmaqla cəmi, 164 hektarda gül plantasiyalarına aqrotexniki qulluq tədbirləri davam etdirilir.

Azərbaycan Respublikası Prezidentinin "Əkin sahələrinin suvarma suyu ilə təminatının yaxşılaşdırması və əhalinin içməli suya olan tələbatının ödənilməsinə dair əlavə tədbirlər haqqında" 12 mart 2018-ci il tarixli Sərəncamına əsasən rayonda 13 ədəd subartezian quyularının qazılması nəzərdə tutulmuşdur. Artıq "Azərbaycan Meliorasiya və Su Təsərrüfatı" ASC tərəfindən Zaqatala şəhərində, Əliabad qəsəbəsi, Bəhmətli, Kürdəmir, Car, Kəpənəkçi və Qandax kəndlərinin hər birində 1 ədəd subartezian quyuları qazılmış, Faldarlı kəndində isə artezian quyusunun qazılması davam etdirilir.

Zaqatala rayonunun yol-nəqliyyat infrastrukturunun yaxşılaşdırılması ilə bağlı Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamları ilə ayrılmış vəsaitlər hesabına Qorağan-Qax-Zaqatala avtomobil yolunun Qax-Zaqatala hissəsinin yenidənqurulması işləri başa çatdırılmışdır.

Əhalinin təbii qazla təminatının yaxşılaşdırılması nəqsədi ilə rayonun şəhər, qəsəbə və kənd yaşayış məntəqələrində qaz xətlərində təmir işləri davam etdirilmiş, 77 ədəd məişət qaz sayğacı yeni SOCAR tipli qaz sayğacı ilə əvəzlənmiş, 126 abonentin fərdi qaz xətti mənbəyə birləşdirilmişdir.

2018-ci ilin I yarım il ərzində rayonun yaşayış məntəqələrində enerji təminatı sahəsində də müəyyən işlər görülmüş, "Azərişıq" Açıq Səhmdar Cəmiyyəti Zaqatala Elektrik Şəbəkəsi tərəfindən əhalinin fasiləsiz elektrik enerjisi ilə təmin edilməsi məqsədilə xeyli təmir-bərpa işləri aparılmışdır. Yaşayış məntəqələrində əhalinin içməli su ilə təminatının yaxşılaşdırılması sahəsində də işlər davam etdirilmişdir. Əhaliyə poçt və rabitə xidmətlərinin yaxşılaşdırılması sahəsində xeyli işlər görülmüşdür.

Altı ayda rayonun ümumtəshil məktəblərində də əldə edilən nəticələr ürəkaçandır.

Hesabat dövründə Zaqatala Rayon Təhsil şöbəsi, Zaqatala Rayon Bölgə Qazılığı, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin Zaqatala bölgəsi üzrə şöbəsi, Zaqatala rayon hüquq-mühafizə orqanları və digər müvafiq qurumların iştirakı ilə rayonun 14 məktəbində qeyri-ənənəvi radikal dini cərəyanların yayılmasına qarşı, dini fanatizmə, mövhumata və xurafata qarşı silsilə tədbirlər keçirilmiş, Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sifarişi ilə çəkilmiş "Şəhadət" sənədli filmi nümayiş etdirilmişdir. 19 məsciddə rayonun din xadimləri və dindarlarla keçirilmiş 37 dini-maarifləndirici görüşlərdə 3161 nəfər iştirak etmiş və 100-dən çox maarifləndirici kitablar tədbir iştirakçılarına paylanmışdır.

Yığıncaqda dinlənilən məruzə və çıxışlarda qeyd olundu ki, müstəqilliyini ildən-ilə möhkəmləndirən Azərbaycan dövlətinin tarixində möhtərəm Prezidentimiz cənab İlham Əliyevin qızıl hərflərlə yazdığı şanlı səhifələrin sayı artdıqca, xalqın gələcəyə inamı daha da güclənir, Azərbaycan bayrağının torpaqlarımızın hər qarışında dalğalanması üçün lazım gələn bütün addımlar atılır, ölkəmizin iqtisadi və hərbi qüdrətini, beynəlxalq nüfuzunu gücləndirməkdən ötrü böyük qətiyyət göstərilir. Bu gün ölkəmizdə görülən bütün işlər Azərbaycan xalqının daha xoş güzəranını qurmaq, sabahını daha gözəl və xoşbəxt etmək məqsədi daşıyır.

**Rasim AMANOV,**
**"Respublika".**

# DAŞKƏSƏN: QARŞIDA DURAN VƏZİFƏLƏR LAYİQİNCƏ YERİNƏ YETİRİLİR





**Daşkəsən Rayon İcra Hakimiyyətində 2018-ci ilin birinci yarısının yekunları və qarşıda duran vəzifələrlə bağlı hesabat yığıncağı keçirilmişdir. Yığıncağı giriş sözü ilə açan Daşkəsən Rayon İcra Hakimiyyətinin başçısı Əhəd Abıyev hesabat məruzəsi ilə çıxışında qeyd etmişdir ki, respublikamızın digər rayonlarında olduğu kimi, Daşkəsən rayonunda da 2018-ci ilin 6 ayı ərzində bir çox uğurlu işlər və nailiyyətlər əldə olunmuşdur.**

Belə ki, iqtisadiyyatın əsas sahələrində istehsal olunmuş məhsul və xidmətlərin ümumi həcmi əvvəlki ilin eyni dövrünə nisbətən müxtəlif sahələr üzrə xeyli artmışdır. Rayon ərazisində bir sıra tikinti, təmir-bərpa, yenidənqurma, abadlıq-quruculuq işləri görülmüş və hazırda da həmin işlər davam etdirilir. Azərbaycan Hökuməti ilə İslam İnkişaf Bankı tərəfindən maliyyələşən "Daşkəsən şəhərinin su və kanalizasiya sistemlərinin yenidən qurulması" layihəsi üzrə son tamamlama işləri yerinə yetirilir. Artıq Daşkəsən şəhərinin çox hissəsi (90,7 faiz) ekoloji cəhətdən təmiz və fasiləsiz olaraq içməli su ilə təmin olunur. Bundan başqa, Daşkəsən şəhəri Alunitdağ qəsəbəsinin içməli su ilə təminatın yaxşılaşdırılması üçün nəzərdə tutulan yaşayış məntəqələrinin siyahısına əlavə olunmuş və həmin sahə üzrə müəyyən işlər görülmüşdür.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin tapşırığı ilə respublikamızın şəhər və rayonlarının ümumtəhsil məktəblərinin IX-XI sinif şagirdləri üçün "Ölkəmizi tanıyaq" devizi ilə keçirilən növbəti maarifləndirici tur-aksiyada Daşkəsən rayonundan 40 nəfər məktəbli 26-29 mart 2018-ci il tarixlərdə Qəbələ-Şəki-Zaqatala marşrutunun iştirakçıları olmuşlar.

Rayona investisiya cəlb olunması məqsədilə ərazidə kənd təsərrüfatı məhsullarının istehsalı və emalı, sənaye, energetika, tikinti, ticarət, nəqliyyat, telekommunikasiya, poçt, maliyyə-bank, turizm və digər xidmət sahələri üzrə mövcud vəziyyət, məlumatlar kütləvi informasiya vasitələri ilə hərtərəfli təşviq olunmuşdur.

19 iyun 2018-ci il tarixdən 03 iyul 2018-ci il tarixədək "ASAN xidmət" Daşkəsən rayonunda səyyar olaraq xidmət göstərmişdir. Bundan 1075 nəfər yararlanmışdır.

Rayonda 3 kartofçuluq üzrə toxumçuluq təsərrüfatı fəaliyyət göstərir. Toxumçuluq təsərrüfatlarının artırılması üçün işlər davam etdirilir. Cari ilin keçən dövrü ərzində rayon ərazisində 1200,2 hektar sahədə kartof, 59,3 hektar sahədə kələm, 66,1 hektar sahədə lobya, 100 hektarda yonca və 45,5 hektarda göyərti əkilmişdir.

Heyvanların cins tərkibinin yaxşılaşdırılması məqsədilə 1 kənddə (Quşçu kəndində) süni mayalama məntəqəsi fəaliyyət göstərir. Süni mayalama texniki tərəfindən 2018-ci ilin 6 ayı ərzində 195 baş heyvan süni mayalandırılmışdır. Mayalandırılmış heyvanlardan 87 baş bala alınmışdır. Gələcəkdə məntəqələrin sayının artırılması üçün işlər davam etdirilir.

Daşkəsən Rayon İcra Hakimiyyəti tərəfindən 2013-cü ildə 53 bənddən ibarət olan "Yeni Daşkəsən" layihəsi elmi əsaslarla işlənib hazırlanmışdır. Bu layihə ilə rayonun hərtərəfli sosial-iqtisadi inkişafı, kənd təsərrüfatının mövcud vəziyyəti, ayrı-ayrı sektorlarının - heyvandarlığın, arıçılığın, kartofçuluğun, toxumçuluğun, həmçinin turizmin inkişafı, yeni inzibati binaların, korpusların inşası, su, qaz, elektrik təchizatı, yol və körpülərin salınması məsələsi, ən əsası isə yeni iş yerlərinin açılıb işsizliyin aradan qaldırılması, sahibkarlara münbit şərait yaradılması, mövcud problemlərin həlli, o cümlədən də Daşkəsən rayonu "Daşkəsən Filizsaflaşdırma" Açıq Səhmdar Cəmiyyətinin bazasında yaradılması əsas götürülərək "Daşkəsən Filizsaflaşdırma" Açıq Səhmdar Cəmiyyətinin, eləcə də "Alunit" İstehsalat sahəsinin yenidən işləməsinin müasir səviyyədə təmin olunması layihədə əsas vəzifə kimi qarşıya qoyulmuşdur.

Nazirlər Kabinetinin 2018-ci ilin birinci yarısının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclasında "AzerGold" Qapalı Səhmdar Cəmiyyətinin sədri Zakir İbrahimov çıxışında bildirmişdir ki, dağ-mədən hasilat sahəsinin inkişafı istiqamətində "AzerGold" QSC-nin ilk hədəfi Daşkəsəndə yerləşən Çovdar qızıl mədəninin fəaliyyətinin bərpası, yerli əhalinin işlə təmin olunması və gəlirlərin formalaşdırılması olub.

Bu məqsədlə qısa müddət ərzində müxtəlif təyinatlı təmir-tikinti işləri təşkil edilib, mədənin fəaliyyəti bərpa olunub, optimallaşdırılıb, istehsalat 24 saatlıq iş rejiminə keçirilib, işçilərin iş şəraiti təkmilləşdirilib, aktiv hasilat işlərinə başlanılıb və bu işlər bu gün də uğurla davam etdirilməkdədir. Əldə edilən gəlir hesabına yeni sahələrin inkişafına yönələn ilkin investisiyaların qoyuluşları da həyata keçirilib.

Azərbaycan Respublikası Prezidentinin 3749 nömrəli, 5 mart 2018-ci il tarixli Sərəncamı ilə təsdiq edilmiş 2018-ci ildə qazlaşdırılması nəzərdə tutulan yaşayış məntəqələri və ərazilərin siyahısında Daşkəsən rayonu üzrə Quşçu və Bayan kəndləri nəzərdə tutulmuşdur. Quşçu kəndində təbii qaz xəttinin çəkilişinə başlanılmış və hazırda həmin işlər davam etdirilir. Bayan kəndində isə təbii qaz xəttinin çəkilməsi üçün hazırlıq işləri görülür.

Çıxışının sonunda RİH başçısı Əhəd Abıyev rayona göstərilən sonsuz diqqət və qayğıya görə Azərbaycan Respublikasının möhtərəm Prezidenti cənab İlham Əliyevə qədirbilən daşkəsənlilər adından minnətdarlığını bildirərək qarşıya qoyulmuş ümdə vəzifələrin bundan sonra da layiqincə yerinə yetirilməsi üçün bütün qüvvələrini səfərbər edəcəklərini vurğuladı.

**Zabit XƏLİLOV,**
**"Respublika".**

# Füzuli: bütün sahələrdə uğur qazanılır

**Cəbhə xəttində atəşkəsin tez-tez pozulması və dinc insanların atəşə tutulması bir daha Ermənistanın təcavüzkarlıq və işğalçılıq niyyətindən xəbər verir. İşğal etdiyi Azərbaycan torpaqlarında yurd yerlərimizi xarabalığa çevirən düşmən öz havadarlarının köməyinə arxalanaraq atəşkəsi pozmaqla əhalini qorxu və vahimə altında saxlamağa cəhd göstərir. Hər dəfə də Azərbaycan ordusu düşmənə layiqli cavab verir və onlar susmağa məcbur olurlar.**



Torpaqlarımızı işğal edən düşmənlə bir neçə addımlıqda yaşayan, işləyən və mübarizə aparan füzulililər ölkədə həyata keçirilən mütərəqqi islahatları rayonun sosial-iqtisadi həyatına tətbiq etməklə kənd təsərrüfatı məhsullarının istehsalını artırırlar. Görülən işlər, həyata keçirilən tədbirlər əhalinin əhval-ruhiyyəsini yüksəldir, onları bütün sahələrdə uğurlar qazanmağa ruhlandırır.

Prezident İlham Əliyevin respublikada kənd təsərrüfatının və sahibkarlığın inkişafı, yerli istehsalın artırılması, idxaldan asılılığın azaldılması, əhalinin məşğulluğunun yüksəldilməsi, torpaq sahələrindən səmərəli istifadə olunması barədə tapşırıqları rayonda uğurla icra olunur. Cəbhə bölgəsində yaşayan, işləyən və mübarizə aparan füzulililər öz təsərrüfatlarını genişləndirir, taxılçılıq, pambıqçılıq, baramaçılıq, heyvandarlıq və kənd təsərrüfatının digər sahələri ilə məşğul olmaqla, həm özlərinin sosial rifahını yaxşılaşdırır, həm də ölkəmizdə ərzaq bolluğunun yaradılmasına töhfələrini verirlər.

Horadiz şəhərində 2018-ci ilin birinci yarısının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş hesabat yığıncağında bu barədə daha ətraflı söz açılıb. **Füzuli Rayon İcra Hakimiyyətinin başçısı Alı Alıyevin** hesabat məruzəsində bildirilib ki, füzulidə cari ilin birinci yarısında ümumi məhsul buraxılışının həcmi 86.401,8 min manat olub. Bu, ötən ilin müvafiq dövrü ilə müqayisədə 0,7 faiz çoxdur. Bütün maliyyə mənbələri hesabına əsas kapitala 4661,5 min manat investisiya qoyulub, 4596,8 min manatlıq tikinti-quraşdırma işləri aparılıb.

Birinci yarımildə rayonda tikinti-quruculuq işləri davam etdirilib. "Xocalı soyqırımı" qurbanlarının xatirəsinə abidə kompleksi inşa edilib. Hazırda Horadiz şəhərində Bayraq Muzeyinin, Əmlak Məsələləri Dövlət Komitəsinin rayon şöbəsi üçün inzibati binanın, Bala Bəhmənli kəndi ərazisində Rayon Mərkəzi Xəstəxanasının tikintisi davam etdirilir.

Yığıncaqda aqrar sahədə görülən işlərdən bəhs edilərkən bildirilib ki, rayonda strateji məhsul olan taxılçılığın intensiv inkişafına xüsusi diqqət yetirilir. Uzun illərdir ki, taxılçılıq rayonda kənd təsərrüfatının əsas sahələrindən biridir. Son illər rayonda taxılçılığın inkişaf etdirilməsi, məhsul istehsalının artırılması istiqamətində mühüm addımlar atılıb.

Rayonda yeddinci ildir ki, 100 min tondan çox taxıl istehsal edən rayonlar sırasındadır. Bu il rayonda 36 min hektardan çox sahədə taxıl becərilib, 108 min 217 ton məhsul əldə edilib. Taxıl istehsalında rayonda yaradılan dörd iri taxılçılıq təsərrüfatlarının rolu böyükdür.

Qeyd edilib ki, rayonda ənənəvi təsərrüfat sahələri olan pambıqçılıq və baramaçılıq da inkişaf etdirilir. Rayon kümçüləri bu il 37,5 tondan artıq yaş barama istehsal ediblər. Bu göstərici ilə Füzuli respublikada ən çox barama istehsal edən rayonlar sırasındadır. 2100 hektar sahədə pambıq becərən "ağ qızıl" istehsalçıları da ili yüksək nəticələrlə başa vurmaq niyyətindədirlər.

Yığıncaqda təhsil, səhiyyə, mədəniyyət, idman, xidmət sahələrində görülmüş işlər təhlil olunub, uğurlarla yanaşı mövcud problem və çatışmazlıqlar da göstərilib, qarşıda duran vəzifələr müəyyən edilib.

**Salman ALIOĞLU,**
**"Respublika".**

# Oğullar əsgər gedir



Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Xəzər rayon idarəsi Almaz İldırım küçəsinin ərazisində yerləşir. Vurğulamaq lazımdır ki, isti yay günlərində bu məkanda coşqu, təntənə duyulur. Əllərində üçrəngli Azərbaycan Bayrağını dalğalandıran Vətənə sipər oğullar müharibə və əmək veteranları, valideynləri ilə birgə əsgəri xidmətə yolasalınma mərasimində iştirak etməyə tələsirdilər. Hiss olunurdu ki, gənclər qüdrətli Azərbaycan ordusunda ləyaqətlə xidmət edəcək, ölkəmizin ərazi bütövlüyünü şərəflə qoruyacaqlar.

İdarənin foyesinə nəzər yetirərkən "Ordum varsa, yurdum var", "Azərbaycanın Milli Qəhrəmanları", "Vətənin keşiyində", "Şəhidlər intiqama çağırır" və gəncləri hərbi-vətənpərvərliyə səsləyən digər şüar və diaqramlar diqqəti cəlb edir.

Hərbi xidmətə yola düşən bir qrup gənc idarənin həqiqi hərbi xidmətə çağırış şöbəsinin rəisi, mayor Rahim Ağayevin əhatəsində idi. Gənc zabit sabahın əsgərləri ilə maraqlı söhbət aparır, onlara məsləhət görürdü ki, xidmət dövründə hərbi texnikanın sirrlərini mükəmməl öyrənsinlər, ata-babalarımızın şanlı döyüş ənənələrinə sadiqlik nümunəsi nümayiş etdirsinlər.

Gənclərin əsgəri xidmətə yolasalınma mərasimində ilk söz **Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Xəzər rayon idarəsinin rəisi, polkovnik-leytenant Nasir Qurbanova** verilir. O, ilk öncə tədbirə qatılan çoxsaylı insanları salamlayır, sonra isə qəlbindən süzülüb gələn xoş sözləri onlarla yarı bölür:

—Azərbaycan xalqı öz ordusunu sevir, ona arxalanır, ona güvənir, onun gücünə inanır. Fəxr edirik ki, bu gün bizim güclü dövlətimiz, güclü ordumuz vardır. Bu ordunun gücü isə mənsub olduğu güclü texnikaların: təyyarələrin, gəmilərin, tankların, artilleriya qurğularının, hava hücumundan müdafiə komplekslərinin çoxluğu, müasirliyi, effektivliyi ilə yanaşı, həm də şəxsi heyətin peşəkarlığında, vətənpərvərliyində, mənəvi-psixoloji, siyasi, fiziki hazırlığının yüksəkliyindədir. Ordumuzun gücü həm də xalq ilə onun monolit birliyində, hər bir döyüşçünün ruh yüksəkliyindədir.

Ordu quruculuğu ilə bağlı Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin bu sözlərini xatırlamaq yerinə düşərdi: *"Bu gün Azərbaycan sözün əsl mənasında bölgədə ən yüksək mövqelərə malik bir ölkədir. Əlbəttə, bunu şərtləndirən müxtəlif amillər var. O cümlədən iqtisadi potensial və ordunun güclü olması. Biz tarixi yaxşı bilirik və uğur qazanmış ölkələrin təcrübəsini də öyrənirik. Güclü ordu güclü dövlət deməkdir. Bütün məqsədlərimiz güclü ordu yaratmaqdır. Biz bunu edirik, yaradırıq və daha da möhkəm orduya malik olmalıyıq".*

Nasir Qurbanov sözünə davam edərək qürur hissi ilə bildirdi ki, Azərbaycan ordusu regionun güclü, müasir silahlı qüvvəsidir və işğal olunmuş torpaqlarımızı azad etməyə hər an hazırdır. Azərbaycan Silahlı Qüvvələrinin 100 illiyi münasibətilə Bakıda təntənəli hərbi paradda nümayiş etdirilən bütün növ silahlar həm xalqımıza, həm bütün dünyaya bunu bir daha göstərdi.

Gənclərin həqiqi hərbi xidmətə yolasalınma mərasimində Cavanşir Babayev valideynlər adından çıxış edərək vurğuladı ki, necə illərdir ki, torpaqlarımızın 20 faizindən çoxu erməni işğalı altındadır. Əminliklə deyə bilərəm ki, daşnak quldurlar heç vaxt məkirli niyyətlərinə nail ola bilməyəcəklər. Biz çox tezliklə Kəlbəcər ellərinə, Şuşaya, Həkəri və Bərguşad çaylarının sahillərinə, həmçinin düşmən tapdağında olan qədim Oğuz ellərinə qayıdacağıq, bu gün bizim güclü ordumuz, güclü potensialımız var.

Budur, meydan yenə də musiqiyə verilir, gənclərdən Elnur İsayev, Murad Kazımov, Gülbala Məmmədov və başqaları mərasim iştirakçılarının xeyir-duası ilə ordu sıralarına yola düşürlər.

**Qədir ASLAN,**
**"Respublika".**

# ADAU-da 1-ci Beynəlxalq Yay Məktəbinə start verildi





Azərbaycan Dövlət Aqrar Universitetində (ADAU) Davamlı İnkişaf Hədəfləri adlı 1-ci Beynəlxalq Yay Məktəbinə start verildi. Bu münasibətlə universitetin 2 nömrəli Tələbə evinin akt zalında məktəbin təntənəli açılış mərasimi keçirildi. Tədbiri giriş sözü ilə açan universitetin rektoru, AMEA-nın müxbir üzvü, professor İbrahim Cəfərov məktəbin fəaliyyətinə uğurlar arzulayaraq bildirdi ki, məktəbin təşkilində məqsəd yerli və xarici ali təhsil müəssisələrinin tələbələrini bir yerə toplamaqla, Davamlı İnkişaf Hədəflərini, onların icra vəziyyətini və qlobal əməkdaşlığı müzakirə etməkdir. 2018-ci ilin 16-28 iyul tarixlərində keçirilən məktəbə ölkəmizin ali təhsil müəssisələri Azərbaycan Dövlət İqtisad Universitetindən 3, ADA Universitetindən 1, Bakı Mühəndislik Universitetindən 1, Azərbaycan Dövlət Aqrar Universitetindən 2, Bakı Dövlət Universitetindən 1, (Azərbaycan Texnologiya Universitetindən 1 tələbə) ilə yanaşı xarici ali təhsil müəssisələrindən (Qazaxıstan Milli Aqrar Universitetindən 2, Gürcüstan Texniki Universitetindən 4, Çin Kənd Təsərrüfatı Universitetindən 2, Çexiyanın Cənubi Bohemia Universitetindən 3, Təbiət Elmləri Universitetindən 2, Türkiyənin Allattin Keykubat Universitetindən 2 və Yıldız Teknik Universitetindən 1, Rusiya Dövlət Aqrar Universitetindən 1, Polşanın Poznan Təbiət Elmləri Universitetindən 3 və Varşava Təbiət Elmləri Universitetindən 2, Özbəkistanın Əndican Maşın Mühəndisliyi İnstitutundan 1, Tehran Universitetindən 1 tələbə) qatılmışlar. Ümumilikdə isə yay məktəbində iştirak edən tələbələrin sayı 34-dür.

Məktəbin iştirakçıları bu dövrdə ölkə Prezidenti cənab İlham Əliyevin diqqət, qayğısı və xeyir-duası ilə müasir stildə qurulmuş Tələbə evində yaşayacaqlar.

Azərbaycan Respublikasının kənd təsərrüfatı naziri İnam Kərimovun təbriklərini çatdıran Kənd Təsərrüfatı Nazirliyinin İnsan Resursları Departamentinin direktoru Elvin Paşayev ölkəmizdə aqrar sahənin, aqrar elm və təhsilin inkişaf istiqamətlərindən, qarşıda duran prioritet vəzifələrdən danışıb, yay məktəbinin iştirakçılarına uğurlar arzuladı.

Tədbirdə Milli Məclisin deputatı, Yeni Azərbaycan Partiyası Gəncə şəhər təşkilatının sədri Naqif Həmzəyev, Milli Məclisin deputatı, Gəncə Dövlət Universitetinin elm və innovasiyalar üzrə prorektoru, dosent Pərvin Kərimzadə, AMEA Gəncə Regional Bölməsinin akademik-katibi, akademik Fuad Əliyev, Gəncə Şəhər Gənclər və İdman Baş İdarəsinin rəisi Müşfiq Cəfərov çıxış edərək yay məktəbinin təşkilinin əhəmiyyətindən və ADAU-nun beynəlxalq səviyyədə tanınmasında rolundan danışdılar.

Yay məktəbində davamlı inkişaf hədəflərinə dair məsələlər müzakirə olunmaqla yanaşı, iştirakçılar üçün ölkəmizin füsunkar yerlərinə, regionda yerləşən fermer təsərrüfatlarına, Region Aqroparka, Qəbələ Heyvandarlıq Kompleksinə və digər yerlərə turlar təşkil olunacaqdır.

Rektor sonda tədbirin təşkilində göstərdikləri dəstəyə görə BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının (FAO) Azərbaycan üzrə Tərəfdaşlıq və Əlaqələndirmə ofisinin, Aztexnika və Grand Motors şirkətlərinin rəhbərlərinə təşəkkürünü bildirdi.

Sonra məktəbin iştirakçıları çıxış edərək məktəbin təşkilinə görə minnətdarlıqlarını bildirdilər.

**Zabit XƏLİLOV,**
**"Respublika".**

# "AzerTelecom" və "STEP Kompüter Akademiyası" arasında əməkdaşlıq haqqında Memorandum imzalanıb

**Azərbaycanı beynəlxalq internet şəbəkəsinə bağlayan magistral (backbone) internet provayder şirkəti "AzerTelecom" MMC ilə STEP Kompüter Akademiyası arasında əməkdaşlıq haqqında memorandum imzalanıb.**




"AzerTelecom" və STEP Kompüter Akademiyası arasında memorandumun imzalanması informasiya və kommunikasiya texnologiyaları sahəsində təhsilin davamlı inkişafı, İKT sahəsində maarifləndirici proqramların icrası, elm, təhsillə bağlı müxtəlif layihələrə dəstəyin verilməsi və bu sahənin geniş ictimaiyyət arasında birgə tanıtımı üçün əhəmiyyətli şərait yaradır.

Əməkdaşlıq memorandumu **"AzerTelecom" MMC-nin baş icraçı direktoru Fuad Allahverdiyev** və **STEP Kompüter Akademiyasının direktoru Aleksey Sleptsov** arasında imzalanıb və bir sıra mühüm istiqamətlər üzrə əməkdaşlığın həyata keçirilməsini nəzərdə tutur.

"Memorandum qarşımızda yüksək texnologiyalar sahəsində təhsilin inkişafı, Akademiyanın şagird və tələbələrinin nəzəri və təcrübi biliklərinin artırılması üçün geniş imkanlar yaradır. "AzerTelecom" şirkəti cəmiyyətimizin davamlı inkişafını hədəfləyən, elm və təhsil yönümlü müxtəlif layihələri daim dəstəkləyir. STEP Kompüter Akademiyası ilə gələcək faydalı əməkdaşlığımız çərçivəsində birgə həyata keçirəcəyimiz yeni maarifləndirici layihələrin ümumi inkişafa töhfə verəcəyinə inanırıq", - deyə şirkətin baş icraçı direktoru Fuad Allahverdiyev qeyd edib.

Öz növbəsində STEP Kompüter Akademiyasının direktoru Aleksey Sleptsov bildirib ki, memorandum çərçivəsində birgə əməkdaşlıq gənclərin inkişafı üçün yeni imkanlar açacaq və İKT sahəsində təhsilin irəli aparılmasına şərait yaradacaq.

*Qeyd edək ki, **STEP Kompüter Akademiyası** 1999-cu ildən fəaliyyət göstərir və kompüter təhsili üzrə ixtisaslaşmış beynəlxalq təhsil müəssisəsidir. Akademiya Azərbaycan da daxil olmaqla dünyanın 16 ölkəsində fəaliyyət göstərir və ümumilikdə 30 min tələbə və 85 min məzuna sahibdir.*

***"AzerTelecom" MMC** Azərbaycanın dinamik şəkildə inkişaf edən telekommunikasiya operatorudur. Şirkət 2008-ci ildə təsis edilib və əsas səhmdarı Azərbaycanın ilk mobil operatoru "Bakcell" şirkətidir. "AzerTelecom" şirkəti internetin topdan satışı, ayrılmış kanal xidməti, mobil və stasionar telekommunikasiya şəbəkələrində informasiyanın daşınması, beynəlxalq tranzit, SİP telefoniya, FTTx (fiber optik xətt xidməti), Data mərkəz xidmətləri, VSAT xidmətləri, Korporativ şəbəkə, Backbone xidmətləri, GSM üzərindən ayrılmış xətt, VPN (virtual şəxsi şəbəkə), VoİP xidməti, DDOS hücumundan müdafiə və digər xidmətlər təqdim edir.*

**Ü.QARAYEV,**
**"Respublika".**

# "Əmlakını qeydiyyata al və mülkiyyətinə sahib ol" kampaniyası

Əmlak Məsələləri Dövlət Komitəsi "Əmlakını qeydiyyata al və mülkiyyətinə sahib ol" adlı yeni sosial kampaniyaya start verir. Tədbir "Vətəndaş xidmətin məkanında deyil, xidmətin vətəndaşın yanında" hədəfinə uyğun olaraq keçirilir. Kampaniya daşınmaz əmlaka dair qeydiyyat xidmətlərini əhaliyə daha da yaxınlaşdırmaqla bu sahədə əlçatanlığı artırır. Məqsəd daha şəffaf şəkildə əmlaklara dair kütləvi sənədləşmənin həyata keçirilməsi, ünvana çatdırılan ictimai xidmətlərdən əhalinin geniş təbəqəsinin yararlanması, o cümlədən leqal və etibarlı əmlakların sayının artırılmasıdır.



Belə ki, bu sosial layihə ardıcıl olaraq respublikanın bütün ərazilərini əhatə edəcək. Öncədən elan edilən məkanda fəaliyyət göstərəcək mobil ofislər vətəndaşların xidmətində olacaq. Sakinlər ərazi idarələrinə getmədən bu mobil ofislərə müraciət etməklə səyyar şəkildə qeydiyyat xidmətlərindən yararlana biləcəklər. Bununla bağlı vətəndaşlar əvvəlcədən kütləvi informasiya vasitələri ilə məlumatlandırılacaqlar.

Bu kampaniya iyulun 16-da Abşeron rayonun Ceyranbatan qəsəbəsində reallaşıb. Belə ki, sakinlər 16-20 iyul tarixlərində saat 09:00-dan 17:00-a qədər Ceyranbatan qəsəbəsinin 20 yanvar küçəsi, 1 ünvanında fəaliyyət göstərən komitənin mobil ofislərinə yaxınlaşa bilərlər. Kampaniyanın əhatə etdiyi ərazi sakinlərinin səyyar qaydada bütün növ daşınmaz əmlak üzrə qeydiyyat xidmətlərindən yararlanmaq imkanı var. Başqa sözlə Abşeron rayonunun Ceyranbatan qəsəbəsinin əhalisi qeyd edilən tarixdə və vaxtda göstərilən ünvanlarda fəaliyyət göstərən mobil ofislərə müraciət edə bilərlər.

Vətəndaşlar komitənin rəsmi internet saytına (emdk.gov.az) daxil olaraq "Əmlakın qeydiyyatı kalkulyatorundan" istifadə etməklə qeydiyyat apardığı əmlakının parametrlərindən asılı olaraq dövlət rüsumunu və xidmət haqqını əvvəlcədən öyrənə bilərlər.

Kampaniya çərçivəsində sakinlərə daşınmaz əmlakın qeydiyyatı ilə bağlı lazımi məlumatları özündə əks etdirən informasiya bukletləri və bildirişlər paylanılıb.

Belə mobil ofislər vasitəsilə əmlaklar daha sadə və innovativ üsullarla sənədləşdiriləcək. Bu kampaniyalar vətəndaşların qeydiyyat orqanı ilə birbaşa ünsiyyətini təmin edəcək, digər kənar əlaqələrin aradan qaldırılmasına imkan verəcək.

**Nəriman CAVADOV,**
**"Respublika".**

# Dövlət Sərhəd Xidməti mətbuat mərkəzinin məlumatı

**Dövlət Sərhəd Xidmətinin hərbi hissələri və bölmələri tərəfindən sərhədyanı ərazilərdə yaşayan əhaliyə hər zaman mümkün köməklik gostərilmiş, müxtəlif problemlərin həllində dəstək verilmişdir.**

2018-ci il iyul ayının 15-də Fizuli rayonu sakininin həyatını sərhədçilərin köməkliyi ilə xilas etmək mümkün olmuşdur. Belə ki, həmin tarixdə Fizuli rayonunun Alıxanlı kənd sakini 1935-ci il təvəllüdlü Məmmədova Elminaz Rza qızını öz həyətində ilan sancmış və o təcili olaraq rayon xəstəxanasına gətirilmişdir.

E.Məmmədovanın həyatını xilas etmək üçün ona təcili ilan zərdabı vurmaq məqsədilə Dövlət Sərhəd Xidmətinin sərhəd qoşunlarının Horadiz sərhəd dəstəsinə müraciət olunmuşdur.

Müraciətə dərhal reaksiya verilmiş, şəxsi heyətin ilan sancması hallarında istifadə etmək məqsədilə hərbi hissənin tibb məntəqəsində saxlanılan ilan zərdabı rayon xəstəxanasına çatdırılmış və vətəndaşın həyatı xilas edilmişdir.

# DÜNYA BUGÜN

FAKTLAR, HADİSƏLƏR, ŞƏRHLƏR

## TRAMP: İRANLA NÜVƏ SAZİŞİNİN QORUNMASI ABŞ-ı QANE ETMİR



İranla nüvə sazişinin qorunması Moskvanın marağındadır, lakin ABŞ-ı qane etmir. "APA"-nın verdiyi xəbərə görə, bu barədə ABŞ prezidenti Donald Tramp rusiyalı həmkarı Vladimir Putinlə görüşündən sonra "Fox News" telekanalına müsahibəsində bildirib.

"Düşünürəm ki, Vladimir Putin İrana dair sazişin qüvvədə qalmasını istəyir, çünki bu Rusiyanın marağındadır, onların İranla biznesi mövcuddur. Lakin bu bizi, eləcə də, bütün dünyanı qane etmir", - deyə Donald Tramp vurğulayıb.

Məlumat üçünq eyd edək ki, ABŞ birtərəfli qaydada İranla bağlanmış nüvə sazişini tərk edərək, Tehrana qarşı bütün sanksiyaları bərpa edib.

Eyni zamanda, verilən xəbərə görə, İran Silahlı Qüvvələrinin Baş Qərargah rəisi Məhəmməd Bakeri bildirib ki, ABŞ Yaxın Şərqdə təhlükəsizliyi pozmağa çalışır.

"Amerika regionda qeyi-təhlükəsiz vəziyyət yaratmağa çalışan ölkələrin siyahısına başçılıq edir və təhlükəsizliyin bərpasına qarşı çıxış edirlər", - deyə Məhəmməd Bakeri Pakistana səfəri çərçivəsində bəyan edib.

Bununla yanaşı, Məhəmməd Bakeri əlavə edib ki, Cənub-Qərbi Asiyada hazırkı vəziyyəti nəzərə almaqla İran və Pakistan hərbi əlaqələri genişləndirməli və regionda sabitliyin bərpası planını hazırlamalıdırlar.

## CEFF BEZOS DÜNYANIN ƏN ZƏNGİN İNSANI OLDU



"Amazon" şirkətinin yaradıcısı Ceff Bezos bir günə 1,2 milyard dollar qazanıb. "APA"nın Türkiyə mətbuatına istinadən verdiyi xəbərə görə, ABŞ-ın ən məşhur şirkətlərindən sayılan "Amazon"un səhmləri bir gecə ərzində 1,2 milyard dollar bahalaşıb.

Məlumata görə, bu göstərici "Amazon" səhmlərində bu günə qədər rekord artım kimi qiymətləndirilir. Bununla da şirkətin qurucusu Ceff Bezosun sərvəti 150,2 milyard dollara çatıb və nəticədə o, "Forbes"in siyahısında liderliyini daha da möhkəmləndirib.

Bununla yanaşı, siyahıda Ceff Bezosun ən yaxın izləyicisi və "Microsoft" şirkətinin sahibi Bill Qeyts isə 93,7 milyard dollarla ikinci yerdə qərarlaşıb.

Qeyd edək ki, mütəxəssislər "Amazonun" səhmlərinin artımını Ceff Bezosun ildə bir dəfə təşkil etdiyi "Prime Day" ilə əlaqələndirirlər. "Prime Day" günlərində "Amazon"da satışa çıxarılan bir çox məhsul 50 faizdən çox endirimlə müştərilərə təklif olunur.

## NEFT SON ÜÇ HƏFTƏNİN REKORDUNA QƏDƏR UCUZLAŞDI



ABŞ və Səudiyyə Ərəbistanında neft istehsalının artması nəticəsində "qara qızıl" ciddi dəyər itirib. "APA"nın məlumatına görə, informasiyalı şəxslər Səudiyyə Ərəbistanının Asiyada bəzi alıcılara müqavilələrdə qeyd olunandan daha artıq miqdarda neft satdığını bildirir.

Eyni zamanda, xəbər verilir ki, hazırda Donald Tramp administrasiyası xam neft ehtiyatlarının bir qismini bazara çıxarmaq məsələsini nəzərdən keçirir.

Məlumata görə, neft qiymətləri bugünkü ucuzlaşma ilə son üç həftənin ən aşağı səviyyəsinə enib.

Ümumiyyətlə, neft ABŞ-la Çin arasında başlayan "ticarət müharibəsi"nin yenidən alovlanması ilə ciddi dəyər itirməyə başlayıb. Dünya iqtisadiyyatının daralması daha az neft istehlakı deməkdir ki, nəticədə bazarda təklif artır, qiymətlər ucuzlaşır.

Bununla yanaşı, Səudiyyə Ərəbistanı da daxil olmaqla OPEC ölkələri Venesuela və Kanadadan qaynaqlanan neft kəsirini aradan qaldırmaq və ABŞ-ın İrana qoyduğu sanksiyalardan dolayı bu ölkənin bazardakı yerini tutmaq üçün istehsalı artırmağa davam edir.

Verilən xəbərə görə, "Brent" markalı neftin 1 barreli sutka ərzində 3 dollar ucuzlaşaraq 71,70 dollardan satılır. Qərbi Texas nefti isə 2 dollar 70 sent ucuzlaşıb. Hazırda 67 dollardan satılır.

## ABŞ-da CASUSLUQDA ŞÜBHƏLİ BİLİNƏN RUSİYALI QADIN SAXLANILIB



Vaşinqtonda casusluqda şübhəli bilinən Rusiya vətəndaşı Mariya Butina saxlanılıb. "APA"nın verdiyi xəbərə görə, bu barədə ABŞ Ədliyyə Nazirliyinin müvafiq məlumatını "ABC News" telekanalı yayıb.

Məlumata görə, 29 yaşlı Mariya Butina "Amerika siyasətinə təsir etmək imkanına malik təşkilatlara daxil olmağa çalışıb".

Eyni zamanda, bildirilir ki, iyulun 15-də saxlanılan Mariya Butina ABŞ sanksiyalarının tətbiq edildiyi rusiyalı məmura işləməkdə ittiham edilir.

Bununla yanaşı, həmin məmurun kimliyi açıqlanmasa da, onun əvvəllər deputat olduğu, hazırda isə Rusiya Mərkəzi Bankında yüksək vəzifədə çalışdığı qeyd olunur. ABŞ Maliyyə Nazirliyi ona qarşı sanksiyalar tətbiq edib.

Verilən xəbərə görə, Mariya Butina qeyd olunan ittiham üzrə 5 il həbs cəzasına məhkum edilə bilər. Məhkəmə iclası iyulun 18-nə təyin edilib.

## İORDANİYADA DÜNYANIN ƏN QƏDİM ÇÖRƏYİ TAPILDI



Dünyanın ən qədim çörəyi İordaniyanın Qara səhra adlanan ərazisində arxeoloji qazıntılar zamanı aşkarlanıb. İndiyədək ən qədim çörəyin bişirilmə yeri Türkiyənin Çatalhöyük arxeoloji mərkəzi sayılırdı və tarixi 9 min il əvvələ gedib çıxırdı. Bu barədə "TRT" telekanalı məlumat yayıb.

Hər birinin içində böyük dairə şəklində daş sobaların olduğu iki tikili aşkar edən tədqiqatçılar hər iki tikilidə yanmış çörək qırıntıları tapıblar.

Verilən xəbərə əsasən, mikroskopla baxıldıqda 5,7 millimetr uzunluğunda, 4,4 millimetr enində, 2,5 millimetr qalınlıqda çörək nümunələrində əzmə, ələmə, yoğurma kimi fəaliyyət izləri aşkarlanıb.

Mayasız bişirilən qədim çörəyi laboratoriya şəraitində yenidən istehsal etməyi sınayan tədqiqatçılar çörəyin dadının hazırda istehlak olunan çörəyə oxşadığı qənaətindədirlər.

İngiltərənin London Universitet Kollecinin professoru Dorian Fuller deyib: "Tapılan çörəyin qırıntılarını fərqli məhsulların qarışdırılması ilə meydana gələn bir qida kimi əlimizdə ən qədim sübut olduğunu deyə bilərik".

## YAPONİYADA DAŞQINLAR NƏTİCƏSİNDƏ ÖLƏNLƏRİN SAYI 222 NƏFƏRƏ ÇATIB



Yaponiyada baş verən daşqınlar nəticəsində ölənlərin sayı artıq 222 nəfərə çatıb. "Trend" agentliyinin məlumatına görə, təbii fəlakətdən 10 gün keçməsinə baxmayaraq hazırda 20 nəfər itkin düşmüş sayılır. Verilən xəbərə görə, təxliyə məntəqələrində hələ də 4 min insan qalır.

Eyni zamanda, bildirilir ki, təbii fəlakət baş vermiş rayonlarda mağazalar işləmir, suyun verilişində fasilələr yaranıb. Təxliyə məntəqələrinin önündə humanitar yardımın verilməsi üçün yerlər açılıb.

Qeyd edək ki, iyulun ilk həftəsi Yaponiyanın cənub-qərb və mərkəzi hissəsində güclü leysan yağışları yağıb. Yağışlar torpaq sürüşmələrinə və daşqınlara səbəb olub. Bəzi çaylarda suyun səviyyəsi qalxaraq xeyli ərazini su altında qoyub.

## İNGİLTƏRƏNİN LÜKS TAKSİLƏRİ 2020-ci İLDƏN UÇUŞLARA BAŞLAYACAQ



İngiltərənin avtomobil firması "Rolls Royce" lüks uçan taksi layihəsi üzərində çalışdığını açıqlayıb. Bu barədə "TRT" telekanalı "BBC" agentliyinə istinadən xəbər verib.

Məlumata görə, 3D proqramı əsasında hazırlanan layihədə taksilərin 90 dərəcə dönən qanadlara sahib olacağı və 5 sərnişin daşıyacağı qeyd olunur.

Eyni zamanda, uçan taksilərin turbinlərinin 500 kilovatlık güclə işləyəcəyi, enerji toplayacağı və saatda təxminən 405 kilometr sürətlə hərəkət edəcəyi bildirilir.

Böyük şəhərlərdə nəqliyyatı rahatlaşdırmaq məqsədilə istehsal olunacaq lüks taksilərin 2020-ci ildə uçuşlara başlayacağı vurğulanır.

Qeyd edək ki, bundan əvvəl "Uber" şirkəti də uçan taksilər layihəsini həyata keçirəcəyini açıqlamışdı. ■

# "Azərbaycan Hava Yolları" növbəti dəfə nüfuzlu Skytrax mükafatına layiq görülüb




**Aviaşirkətlərin və hava limanlarının xidmət səviyyəsinin qlobal qiymətləndirilməsi sahəsində Böyük Britaniyanın aparıcı konsaltinq şirkəti "Skytrax" Azərbaycanın milli aviadaşıyıcısının "4 Ulduzlu aviaşirkət" reytinqini növbəti dəfə təsdiq edib. Bu onu göstərir ki, "Azərbaycan Hava Yolları" (AZAL) xidmət keyfiyyətinə görə qlobal aviasiya bazarının tanınmış liderləri ilə bir sırada qiymətləndirilir.**

Bundan əlavə, AZAL aviaşirkəti Skytrax tərəfindən ilk dəfə olaraq "Mərkəzi Asiya və Hindistan üzrə ən yaxşı regional aviaşirkət" nominasiyasının qalibi olmuşdur.

2018-ci il iyulun 17-də Londonda World Airline Awards rəsmi tədbirində ən yaxşı aviaşirkətlərin mükafatlandırılması mərasimi keçirilib.

"Azərbaycan Hava Yolları"nın prezidenti Cahangir Əsgərov bu barədə demişdir: "Skytrax kimi nüfuzlu təşkilat tərəfindən növbəti dəfə belə yüksək mükafata layiq görülmək bizim üçün qürurvericidir və böyük şərəfdir. Azərbaycanın milli aviadaşıyıcısının beynəlxalq səviyyədə yüksək qiymətləndirilməsi ölkə Prezidenti cənab İlham Əliyevin mülki aviasiya sahəsinə göstərdiyi böyük diqqət və qayğının göstəricisidir. Biz aviaşirkətin xidmət keyfiyyətinin daha da yüksəldilməsi istiqamətində çalışmağa davam edəcəyik"

Mükafatlara dair şərh verən Skytrax təşkilatının baş direktoru Edvard Pleysted isə qeyd etmişdir ki, "Azərbaycan Hava Yolları"nın "Mərkəzi Asiya və Hindistan üzrə ən yaxşı regional aviaşirkət" nominasiyasının qalibi olması son dərəcə möhtəşəmdir. Aviaşirkət məhsulun keyfiyyəti və xidmət sahəsində təkmilləşərək nüfuzunu getdikcə artırır və müştərilərinə Bakıdakı beşulduzlu hava limanında xidmət göstərərək sevindirməyə davam edir.

"4 Ulduz" reytinqinə layiq görülməzdən əvvəl aviaşirkət müstəqil beynəlxalq auditorlar tərəfindən göstərilən xidmətlərin keyfiyyətini və işçi heyətinin iş standartlarını əhatə edən 800-dən artıq meyar üzrə qiymətləndirilib. Sərnişinlər üçün mühüm olan aviaşirkət məhsulunun komponentləri - ümumilikdə aviaşirkətin saytı, saytda yerləşdirilən məlumatın məzmunu, biletlərin onlayn bronlaşdırılmasının rahatlığı və digər xidmətlər qiymətləndirilib.

Eyni zamanda təyyarə salonunun vəziyyəti, tərtibi və təmizliyi, təyyarədə sərnişinlər üçün əyləncə sistemi, heyət üzvlərinin xidməti geyim formaları, onların sərnişinlərə münasibəti və işin səmərəliliyi diqqətli şəkildə nəzərdən keçirilib. Rüsumsuz ticarət (duty-free) xidməti, bort jurnalının məlumat tərkibi, sərnişinlər üçün təyyarədə qidanın keyfiyyəti, oturacaqların rahatlığı və s. xidmətlərin qiymətləndirilməsi də diqqətdən kənarda qalmayıb.

Qeyd etmək lazımdır ki, cari ilin may ayında Bakıda Heydər Əliyev Beynəlxalq Aeroportu maksimal "5 ulduz" statusuna layiq görülmüşdür və bununla da Skytrax World Airport Awards versiyası üzrə dünyada ən yaxşı 9 aviaşirkətin siyahısına düşmüş və postsovet ölkələrinin aviaşirkətləri arasında birinci yer tutmuşdur.

**"Azərbaycan Hava Yolları" QSC-nin mətbuat xidməti.**

# Azercell-in 4G şəbəkəsi daha 5 bölgədə genişlənib

**Keyfiyyətli və innovativ xidmətlərilə fərqlənən Azərbayanın lider mobil operatoru Azercell Telekom ölkəmizdə 4G şəbəkəsini genişləndirməkdə davam edir. Şirkət daha 5 şəhərdə - Ağcabədi, Balakən, Qəbələ, Quba və Tovuzda 4G şəbəkəsini qurub və bununla da yüksək sürətli mobil internet xidmətlərindən istifadəni ümumilikdə respublikanın 12 bölgəsində mümkün edib.**

Xatırladaq ki, bundan öncə Azercell-in 4G xidmətləri Gəncə, Şirvan, Şəmkir, Bərdə, Lənkəran, Masallı və Cəlilabadda artıq mövcud idi. Eyni zamanda, Azercell Bakı və bölgələrdə 4G stansiyalarının sayını 2018-ci il ərzində 2 dəfə artıraraq abunəçilərinə bu xidmətin üstünlüklərindən yararlanmaq imkanı verib. Belə ki, təkcə bu ilin ilk 6 ayı ərzində cəmi 113 olmaqla, Bakıda 26, Sumqayıtda 28, Abşeronda 12, Ağcabədidə 8, Balakəndə 7, Cəlilabadda 5, Masallıda 6, Qəbələdə 8, Qubada 7 və Tovuzda 6 LTE şəbəkəsi üzərində çalışan stansiya quraşdırılıb. Hazırda Azercell 2826 2G, 2208 3G və 663 4G stansiyaları sayəsində bütün abunəçilərini yüksək keyfiyyətli mobil rabitə xidməti ilə təmin edir.

Qeyd edək ki, artıq 4G-ni dəstəkləyən həm Sim kartı, həm də mobil cihazı olan Azercell abunəçiləri Azercell müştəri xidmətləri mərkəzlərinə müraciət etmədən 4G xidmətindən yararlana biləcəklər. Bunun üçün abunəçinin istifadə etdiyi cihazda sadəcə 4G-ni seçməsi yetərlidir.

Azercell şirkəti bu ilin sonuna kimi 4G şəbəkəsinin coğrafiyasını Azərbaycanın əksər bölgə və şəhərlərində genişləndirməyi planlaşdırır. Bu ilin sonuna kimi Bakı, Abşeron ərazisində daha 300 ədəd, bölgələrdə isə 182 ədəd 4G stansiyasının qurulması nəzərdə tutulub.

Ölkədə 4G xidmətini ilk dəfə abunəçilərinə təqdim edən və Azərbaycanın bütün bölgələrini yüksək sürətli mobil internetlə təmin etməyi hədəfləyən Azercell-in 4G internet istifadəçilərinin sayı əvvəlki illərlə müqayisədə 3 dəfə artıb, mobil internetdən istifadə həcmi isə 50% çoxalıb.

**Ülvi QARAYEV,
"Respublika".**

# Gəncə hadisələri ilə əlaqədar daha dörd nəfər həbs edilib

**İyulun 3-də və 10-da Gəncədə törədilmiş cinayət hadisəsi ilə əlaqədar iyulun 16-da daha dörd nəfər həbs edilib.**

Hüquq mühafizə orqanlarından AZƏRTAC-a bildiriblər ki, həbs olunanlardan Qurbanov Ceyhun Ələkbər oğlu Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Elmar Vəliyevi və gələcəkdə barələrində terror aktı törədilməsi nəzərdə tutulmuş digər şəxsləri izləməkdə və onlar barədə məlumatları Yunis Səfərova çatdırmaqda təqsirləndirilir. C.Qurbanov Yunis Səfərovun yaxın qohumudur.

Həbs edilmiş digər şəxslər isə iyulun 10-da Gəncədə baş vermiş hadisənin fəal iştirakçıları Allahverdiyev Vüqar Rauf oğlu, Həsənov Ülvi Saləddin oğlu və Şəmkir rayonundan kriminal yönümlü bir neçə şəxsin kütləvi iğtişaşda iştirak etməsi üçün Gəncəyə aparılmasını təşkil etmiş Yusifov Alim Vahid oğludur.

**AZƏRTAC**

## Kinoloji sahəyə həvəsi olan, həqiqi hərbi xidmət keçmiş, yaşı 27-dək olan Azərbaycan Respublikasının vətəndaşları həqiqi hərbi xidmətə dəvət edilirlər:

Xidmətə qəbul olunmaq istəyən vətəndaşlar Dövlət Sərhəd Xidmətinin Aparatına və ya yaşayış yerinə yaxın olan hərbi hissələrə müraciət edə bilərlər:

**Əlavə məlumat almaq üçün aşağıdakı ünvana müraciət etmək olar:**

**Ünvan:** *Bakı şəhəri, Zərifə Əliyeva küçəsi 30, Dövlət Sərhəd Xidməti Aparatının inzibati binası.*

**Əlaqə telefonu:** *012 493-62-47.*

## Azərbaycan Respublikasının İpoteka və Kredit Zəmanət Fondu aşağıdakı SATINALMANI ELAN EDİR

Azərbaycan Respublikası İpoteka və Kredit Zəmanət Fondunun avtonəqliyyat vasitələrinin könüllü sığortalanması üzrə xidmətlərin satınalınması ilə bağlı Xidmət təkliflərinin cəlb olunması.

Azərbaycan Respublikasının İpoteka və Kredit Zəmanət Fondu (bundan sonra - Fond) Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 25 dekabr tarixli 1760 nömrəli Fərmanı ilə yaradılan qeyri-kommersiya hüquqi şəxsdir. Fond barədə ətraflı məlumatları *http://www.mcgf.az* ünvanında yerləşən internet səhifəsindən əldə etmək olar.

Satınalma üzrə prosedurlar **17 avqust 2018-ci il tarixində saat 15.00-da** Fondun inzibati binasında təklif zərflərinin açılması ilə başlanılacaqdır.

**Satınalmada iddiaçı kimi iştirak etmək istəyən malgöndərənlər aşağıdakı sənədləri təqdim etməlidirlər:**

*-Satınalmada iştirak etmək üçün ərizə;*

*-iştirak haqqının ödənilməsini təsdiq edən bank sənədi;*

*-Təklif;*

*-Təklifin qiymətinin 1 faizi həcmində təminat (bank qarantiyası);*

*-iddiaçının hüquqi statusunu əks etdirən sənədlərin (nizamnamə, dövlət qeydiyyatı haqqında şəhadətnamə və ya reyestrdən çıxarış, lisenziya, VÖEN) notariat qaydasında təsdiq edilmiş surətləri;*

*-iddiaçının iş təcrübəsini təsdiq edən sənədlərin surətləri;*

*-Satınalma təklifini və satınalma müqaviləsini imzalamaq səlahiyyətinə malik olan şəxsin səlahiyyətlərini təsdiq edən sənədin (vəzifəyə təyin edilməsi barədə əmr) iddiaçı tərəfindən möhürlə təsdiq edilmiş surəti;*

*-iddiaçının fəaliyyətinin axırıncı ili üzrə maliyyə vəziyyəti haqqında bank arayışı və bank rekvizitləri;*

*-İddiaçının avtomobil sığortası üzrə korporativ müştəriləri haqqında məlumat;*

*-Yığılmış sığorta haqları və verilmiş sığorta ödənişləri haqqında məlumat;*

*-İddiaçının təkrar sığorta siyasəti barədə ətraflı məlumat;*

*-Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış (Vergilər Nazirliyi və Dövlət Sosial Müdafiə Fondu tərəfindən arayışlar);*

**Satınalmada iddiaçı kimi iştirak etmək istəyən malgöndərənlər aşağıdakı tələblərə cavab verməlidirlər:**

*-öz əmlakından sərbəst və məhdudiyyətsiz istifadə etmək imkanı, habelə ödəmə qabiliyyəti olması;*

*-müflis elan olunmaması, əmlakı üzərinə həbs qoyulmaması, ödənişə yönəlmiş girovun olmaması, məhkəmənin qərarı ilə kommersiya fəaliyyəti dayandırılmış şəxs olmaması;*

*-tender prosedurlarının başlanmasından əvvəlki 5 il ərzində özlərinin, habelə işlərini idarə edənlərin, qulluqçularının peşəkar fəaliyyətləri, yaxud satınalma müqaviləsinin bağlanması üçün ixtisas göstəricilərini yanlış göstərmələri ilə əlaqədar cinayətə görə məhkum olunmaması, yaxud onların müvafiq peşə fəaliyyətləri ilə məşğul olmasının məhkəmə qaydasında qadağan edilməməsi.*

Xidmət təklifləri sorğusunda müəyyənləşdirilən keyfiyyət tələblərinə cavab verən yerli xidmətlər üzrə xidmət təkliflərinin xeyrinə xaricdən idxal olunan eyni xidmətlərin təklif edilən qiymətinin 20 faizi həcmində **güzəştli düzəliş** tətbiq ediləcəkdir.

**Xidmətin icra müddəti:** Satınalma müqaviləsi imzalandığı tarixdən başlayaraq 3 (üç) il müddətində həyata keçiriləcəkdir.

Xidmət təklifləri sorğusu Azərbaycan dilində tərtib olunmuşdur.

Satınalmada **iştirak haqqı 50 manat** məbləğində müəyyən edilmişdir. İştirak haqqı Fondun aşağıdakı hesabına ödənildikdən sonra Xidmət təklifləri sorğusu malgöndərənlərə təqdim ediləcəkdir:

**Azərbaycan Respublikasının İpoteka və Kredit Zəmanət Fondu**
**Ünvan: AZ1014, Bakı şəhəri, Nəsimi rayonu, Bülbül prospekti 40**
**VÖEN: 1403502281**
**H/h: AZ57NABZ01360450000000005944**
**Bank: Azərbaycan Respublikası Mərkəzi Bankı**
**VÖEN: 9900071001**
**Kod: 501004**
**M/h: AZ74NABZ01451700000000001944**
**S.W.İ.F.T bik: NABZAZ2C**

İştirak haqqı heç bir halda geri qaytarılmır.

Satınalma üzrə ilkin sənədlər **06 avqust 2018-ci il** tarixinədək, təklif zərfləri və təklifin təminatı isə **16 avqust 2018-ci il** tarixinədək qəbul ediləcəkdir.

Əlavə məlumat almaq üçün əlaqələndirici şəxsin iş telefonu və faks nömrəsi: (+99412) 441-24-23 (daxili 153), Faks: (+99412) 598-11-77.

**Satınalmalar Komissiyası.**

**Azərbaycan Respublikası Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin "Aztelekom" Məhdud Məsuliyyətli Cəmiyyəti tərəfindən 28 mart 2018-ci il tarixində elan edilmiş "Aztelekom" MMC tərəfindən istehsalat zəruriyyəti ilə əlaqədar tələb olunan 7500 (yeddi min beş yüz) ədəd 6,5 metrlik və 200 (iki yüz) ədəd 8,5 metrlik dəmir dirəklərin satınalınması" üzrə açıq tender proseduru üzrə iddiaçılardan daxil olmuş təkliflərin qiymətləndirilməsi həyata keçirilmiş və tenderin qalibi "Rabitə Sənaye" MMC müəyyən edilmişdir. "Aztelekom" MMC ilə "Rabitə Sənaye" MMC arasında "Aztelekom" MMC tərəfindən istehsalat zəruriyyəti ilə əlaqədar tələb olunan 7500 (yeddi min beş yüz) ədəd 6,5 metrlik və 200 (iki yüz) ədəd 8,5 metrlik dəmir dirəklərin satınalınması" üzrə 03 iyul 2018-ci il tarixli satınalma müqaviləsi izmalanmışdır.**

## BİLDİRİŞ

"Bakı Metropoliteni" QSC tərəfindən keçirilmiş 1C maliyyə və mühasibatlıq sisteminə proqram təminatına dəstək xidmətinin göstərilməsinin "Kotirovka sorğusu" üsulu ilə satınalınmasına dair müsabiqədə "Ultra Technologies" MMC qalib elan olunmuşdur. Qalib gəlmiş təşkilat ilə 16.07.2018-ci il tarixdə ƏDV daxil 9381,00 (doqquz min üç yüz səksən bir manat 00 qəpik) manat məbləğində müvafiq satınalma müqaviləsi imzalanmışdır.

**"Bakı Metropoliteni" QSC-nin Tender Komissiyası.**

## BİLDİRİŞ

"Bakı Metropoliteni" QSC tərəfindən 25.06.2018-ci il tarixində keçirilmiş reklam işləri üçün malların "Açıq Tender" üsulu ilə satınalınmasına dair müsabiqədə Fiziki şəxs Əhmədova Nərgiz Almas qızı ƏDV daxil 249 710,42 manat (iki yüz qırx doqquz min yeddi yüz on manat, 42 qəpik) məbləği ilə qalib elan olunmuşdur. Qalib gəlmiş təşkilat ilə 12.07.2018-ci il tarixdə müvafiq satınalma müqaviləsi imzalanmışdır.

**"Bakı Metropoliteni" QSC-nin Tender Komissiyası.**

## E L A N

"Respublika" qəzetinin "30" may 2018-ci il tarixli nömrəsində Azərbaycan Respublikası Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin "Bakı Telefon Rabitəsi" MMC tərəfindən LOT-2 "GPON layihəsində istismara tələb olunan aktiv avadanlıqların" satınalınması məqsədilə dərc edilmiş tender üzrə sənədlərin (tender təklifi və təklifin təminatı istisna olmaqla) təqdim edilmə tarixi 24 iyul 2018-ci il saat 17:00-dək, tender təklifi və təklifin təminatının təqdim edilməsi 31 iyul 2018-ci il saat 17:00-dək, zərflərin açılması isə 01 avqust 2018-ci il saat 15:00-dək uzadılır.

## BİLDİRİŞ

"Bakı Metropoliteni" QSC tərəfindən 07.06.2018-ci il tarixində keçirilmiş təsərrüfat mallarının və təmizləyici vasitələrin "Açıq Tender" üsulu ilə satınalınmasına dair müsabiqədə "NB Qrup" ASC ƏDV daxil 43247,00 manat (qırx üç min iki yüz qırx yeddi manat 00 qəpik) və "All Supply" MMC ƏDV daxil 209394,60 manat (iki yüz doqquz min üç yüz doxsan dörd manat, 60 qəpik) məbləği ilə qalib elan olunmuşdurlar. Qalib gəlmiş təşkilatlar ilə 12.07.2018-ci il tarixdə müvafiq satınalma müqavilələri imzalanmışdır.

**"Bakı Metropoliteni" QSC-nin Tender Komissiyası.**

## "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC

*Geyim formalarının satınalınması məqsədilə*

## AÇIQ MÜSABİQƏ ELAN EDİR

Müsabiqədə iştirak etməyən şəxslər www.acsc.az səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumatı əldə edə bilərlər. Müraciət üçün son müddət 2018-ci il iyulun 25-i saat 18.00-dəkdir.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır).

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

**Ünvan:** *Bakı, Heydər Əliyev prospekti 152, "Çinar plaza", 24-cü mərtəbə.*

**Əlaqə telefonu:** *(012) 404-37-00, daxili: 1132.*

## Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyi Maddi-Texniki Təchizat İdarəsi AÇIQ TENDER ELAN EDİR

| Tender 1 (bir) lot üzrə keçirilir: | | İştirak haqqı (manatla) |
|---|---|---|
| Lot 1 | Yumşaq inventar, yataq ləvazimatları və xüsusi geyimlər | 400,00 |

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdır.

Tenderdə iştirak etmək istəyənlər iştirak haqqını aşağıda göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Bakı şəhəri, Xocahəsən-Lökbatan yolu, 7-ci km qərbi ünvanında yerləşən Fövqəladə Hallar Nazirliyi Maddi-Texniki Təchizat İdarəsinin inzibati binasından əldə edə bilərlər.

*Fövqəladə Hallar Nazirliyi*
*Maddi-Texniki Təchizat İdarəsi*
*VÖEN: 1401347471*
*H/h: AZ11CTRE00000000000002658402*
*Dövlət Xəzinədarlığı Agentliyi*
*Kod: 210005*
*VÖEN: 1401555071*
*M/h: AZ41NABZ01360100000000003944*
*S.W.İ.F.T BİK: CTREAZ22*
**İştirak haqqı heç bir halda geri qaytarılmır.**
**Əlaqə telefonu: (012) 512-47-62**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər.

*-tenderdə iştirak etmək üçün yazılı müraciət;*

*-tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*

*-tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*

*-tender təklifi dəyərinin 1%-i həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır).*

*-Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*

*-iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanı tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*

*-iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*

*-iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*

*-iddiaçının müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları.*

Tender predmeti üzrə işlər satınalma müqaviləsi imzalandığı tarixdən etibarən 1 ay müddətində icra olunmalıdır.

Tender təklifləri Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır.

Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununun tələblərinə uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi, bank zəmanəti və iş qrafiki istisna olmaqla) 05 sentyabr 2018-ci il saat 17:00-dək, tender təklifi, bank zəmanəti və iş qrafiki isə möhürlənmiş ikiqat zərfdə 12 sentyabr 2018-ci il saat 17:00-dək Fövqəladə Hallar Nazirliyi Maddi-Texniki Təchizat İdarəsinin Tender Komissiyasına təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərf açılmadan geri qaytarılacaqdır.

Tender təklifində sərfəli qiymət və yüksək keyfiyyətlə qiymətləndirilən meyarlara üstünlük veriləcəkdir.

İddiaçıların təklifləri 13 sentyabr 2018-ci il tarixində, saat 11:00-da Bakı şəhəri, Xocahəsən-Lökbatan yolu, 7-ci km qərbi ünvanında yerləşən Fövqəladə Hallar Nazirliyi Maddi-Texniki Təchizat İdarəsinin inzibati binasında açılacaqdır.

İddiaçı və ya onun təsdiqlənmiş sənədlə müvəkkil etdiyi şəxslər zərflərin açılışında iştirak edə bilərlər.

**Tender Komissiyası.**

Bakı şəhəri, Qaraçuxur qəsəbəsi, Şərq yaşayış sahəsi ev 120 b-də yaşayan Həsənova Raya Novruz qızının adına verilmiş evin qeydiyyat vəsiqəsi (kupçi) itdiyi üçün etibarsız sayılır.

Binəqədi rayonu, Biləcəri Bələdiyyəsi tərəfindən Bayramova Pakizər Mürsəl qızına fərdi yaşayış evinin tikintisi üçün verilmiş 06.11.2006-cı il 15 N-li qərar itdiyi üçün etibarsız sayılır.

Beyləqan rayon sakini Məmmədov Elgün Şamxal oğluna 28 iyul 2017-ci il tarixində Azərbaycan Respublikası Əmlak Məsələləri Dövlət Komitəsi yanında Daşınmaz Əmlakın Dövlət Reyestri tərəfindən verilmiş RX seriyalı 1116579 saylı (Daşınmaz Əmlakın Reyestr N 607011001438-06301 olan) çıxarış itdiyi üçün etibarsız sayılır.

DT və XK-nin Şabran rayon şöbəsi tərəfindən Şabran rayonu, Günəşli kənd sakini Seyidova Töfə Şıxzada qızının adına verilmiş JN-039 F (kod- 30403028) saylı torpağa mülkiyyət hüququna dair şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

Qaralov Bəxtiyar Əsəd oğlunun adına İsmayıllı rayonu, Qoşakənd kəndində yerləşən (reyestr nömrəsi 407013048994), torpağa (seriya RX; N 1031581) verilmiş çıxarış itdiyi üçün etibarsız sayılır.

Qaralov Bəxtiyar Əsəd oğlunun adına İsmayıllı rayonu, Qoşakənd kəndində yerləşən (reyestr nömrəsi 40713048982) torpağa (seriya RX; N 0976544) verilmiş çıxarış itdiyi üçün etibarsız sayılır.

Qaralov Bəxtiyar Əsəd oğlunun adına İsmayıllı rayonu, Qoşakənd kəndində yerləşən (reyestr nömrəsi 407013047695-10301) torpağa (seriya RX; N 0784096) verilmiş çıxarış itdiyi üçün etibarsız sayılır.

Qaralov Bəxtiyar Əsəd oğlunun adına İsmayıllı rayonu, Qoşakənd kəndində yerləşən (reyestr nömrəsi 407013048966) torpağa (seriya RX; N0976545) verilmiş çıxarış itdiyi üçün etibarsız sayılır.

Lənkəran rayon aqrar islahat komissiyasının 20 dekabr 1997-ci il tarixli 12 nömrəli qərarı ilə Boladi kənd sakini İbadov Məmmədhüseyn Mirəhməd oğluna verilmiş Torpağa mülkiyyət hüququna dair Dövlət Aktı (JN 999; KOD 80200028) itdiyi üçün etibarsız sayılır.

Astara rayon aqrar islahat komissiyasının 24 dekabr 1997-ci il tarixli 92 nömrəli qərarı ilə Balaca Şahağacı kənd sakini Rzayeva Suğra Abbasqulu qızına verilmiş Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə (JN 160 A; KOD 80104038) itdiyi üçün etibarsız sayılır.

"Veteran LTD" MMC-yə məxsus 110023475 VÖEN itdiyi üçün etibarsız sayılır.

Novruzəliyeva Qızxanım Əmrulla qızına məxsus 0.10 ha torpaq sahəsnin JN 074 A kod N 30406028 torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

Baş redaktor
Teymur ƏHMƏDOV

● Redaksiyanın telefonları:
İqtisadiyyat və islahatlar redaksiyası: 539-95-51;
Siyasət, ictimai problemlər və analitik təhlil redaksiyası: 538-55-20;
Beynəlxalq əlaqələr, dövlət quruculuğu və hüquq redaksiyası: 539-26-18;
Humanitar siyasət redaksiyası: 538-25-70;
Xəbərlər redaksiyası: 538-61-02;
İctimai rəy və sosial problemlər redaksiyası: 539-95-51; 538-43-41 tel/faks;
Qəbul otağı: 538-25-70;
Katiblik: 538-25-70;
Reklam və elan xidməti: 441-20-23.




● Redaksiyanın ünvanı:
AZ1073, Bakı
Mətbuat prospekti, 529-cu məhəllə, VII mərtəbə.
E-mail: resp@azdata.net
www.respublica-news.az
"Respublika" qəzetinin kompyuter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında ofset üsulu ilə çap olunmuşdur.
Qeydiyyat № 7.

İndeks 0240
Tiraj 4292
Sifariş 023
Qəzetin satış qiyməti 40 qəpik

Məsul növbətçi
Kamal İBADOV

● Çapa imzalanmışdır
17.07.2018